Müjdəçi ev toplantıları üçün Mailis Janatuinen tərəfindən yazılmış Müjdə

Lukanın Müjdəsindən götürülmüş Müqəddəs Kitab dərsləri

Qeyd: Dördüncü sütunda sualların çətinlik dərəcəsi verilmişdir. Ən asan suallar bir ulduzla, asan suallar iki ulduzla, nisbətən mürəkkəb suallar üç ulduzla işarələnmişdir.

| | | | |
|---|---|---|---|
| 1 | Bakirə qız hamilə qalır | 1:26-38 | |
| 2 | Tarlada çobanlar | 2:8-20 | |
| 3 | Xanna və Şimeon | 2:25-38 | |
| 4 | Yeniyetmə İsa | 2:40-52 | |
| 5 | Vəftizçi Yəhyanın xəbəri | 3:7-20 | |
| 6 | İsanın ilk xidmət günü | 4:31-37 | |
| 7 | Böyük balıq tutma | 5:1-11 | |
| 8 | Kim, həqiqətən də, bəxtiyardır? | 6:20-26 | |
| 9 | Düşməninizi sevin! | 6:27-38 | |
| 10 | Həyatınızın təməli | 6:46-49 | |
| 11 | Naindən olan dul qadın | 7:11-17 | |
| 12 | Çox günahları bağışlanan qadın | 7:36-50 | |
| 13 | Səpilən toxum məsəli | 8:4-15 | |
| 14 | Mən Sənin ardınca gedəcəyəm | 9:57-62 | |
| 15 | Göylərdə yazılan ad | 10:17-20 | |
| 16 | Xeyirxah samariyalı | 10:25-37 | |
| 17 | Yalnız bir şey lazımdır | 10:38-42 | |
| 18 | Balıq və ilan | 11:5-13 | |
| 19 | Dövlətli ağılsız | 12:13-21 | |
| 20 | Biri sadiqdir, digəri deyil | 12:35-48 | |
| 21 | Barsız əncir ağacı | 13:6-9 | |
| 22 | Beli bükülmüş qadın | 13:10-17 | |
| 23 | Dar qapı | 13:22-30 | |
| 24 | Böyük qonaqlıq | 14:12-24 | |
| 25 | İtmiş qoyun | 15:1-7 | |
| 26 | İtmiş oğul | 15:11-24 | |
| 27 | Digər itmiş oğul | 15:25-32 | |
| 28 | Varlı və Lazar | 16:19-31 | |
| 29 | Onu şəfa aldı, biri xilas oldu | 17:11-19 | |
| 30 | İnadkar dul qadın | 18:1-8 | |
| 31 | Kim salehdir? | 18:9-14 | |
| 32 | Ağaca çıxan vergiyığan | 19:1-10 | |
| 33 | Son məsəl | 20:9-19 | |
| 34 | Dul qadının ianəsi | 21:1-4 | |
| 35 | Peter müəllimini inkar edir | 22:31-33, 54-62 | |
| 36 | Səmavi Padşahlığın qapıları açıqdır | 23:32-43 | |
| 37 | Xammaya gedən yolda | 24:13-35 | |
| 38 | Bütün xalqlara | 24:44-53 | |

# 1.BAKİRƏ QIZ UŞAQ DOĞUR (Luka 1:26-38)

**Qısa məlumat:** Bunlar baş verəndə Məryəm 20 yaşına çatmamış gənc bir qız idi. O, nişanlı olduğu dülgər Yusiflə evlənəcəkdi. Əhdi-Ətiqdə nikahdan əvvəl cinsi əlaqə qətiyyən qadağan edilmişdi.

1. Məryəmin necə xasiyyəti var idi – siz bu mətndən hansı nəticəyə gəlirsiniz?
   - Məryəmin Allahla münasibəti necə idi?
   - Məryəmin kiçik Nazaret kəndində gündəlik həyatını təsəvvür edin – bu həyatın sevincli və kədərli anları nə ola bilərdi?
2. Nə üçün Rəbb bu gənc qızı Öz oğlunun anası olmaq üçün seçdi?
   - Məryəmin Mələyin salamlamasına niyə o cür reaksiya verməsinin müxtəlif səbəbləri barədə düşünün (29-cu ayə).
3. Cəbrayılı Məryəmin yanına göndərməkdə Allahın məqsədi nə idi?
   - 32-33-cü ayələri oxuyun. Məryəm dünyaya gətirəcəyi körpə barədə nəyi öyrəndi? Öz sözlərinizlə bunu deyin.
4. Məryəm bakirə idi. Bəs heç bir sübutu olmadan bakirənin uşaq dünyaya gətirə bilməsinə necə inandı? (Başqa cür desək, bədənində hamiləliyin heç bir əlamətlərini görmədən.)
   - Nə üçün bizim dövrdə insanların əksəriyyəti bakirənin uşaq dünyaya gətirəcəyinə inanmaqda bu qədər çətinlik çəkir?
5. Mattanın müjdəsində biz Yusifin bakirə qızın övlad dünyaya gətirə biləcəyinə inanmaqda çətinlik çəkdiyini görürük. Əgər Məryəm İsanın anası olmasına görə hansı əzabları çəkəcəyini bilsəydi, sizcə, o bu çağırışı qəbul edərdimi?
6. Cəbrayıl iki dəfə Məryəmin Allahdan lütf aldığını dedi (28, 30-cu ayələr). “Lütf” sözü günahların bağışlanması deməkdir. Bu bağışlanma Məryəmə nə üçün lazımdır?
7. Yəqin ki, siz də bəzən problemlərinizin hətta Allah tərəfindən belə həll edilməsinin çətin olduğunu hesab edirsiniz. 37-ci ayəni oxuyun və öz problemlərinizə tətbiq edin. Sizin indiki vəziyyətinizdə bu ayə hansı mənanı daşıyır?
8. Otuz üç ildən sonra, Məryəm öz Oğlunun çarmıxı qarşısında dayanmışdı. Məryəm 32-33-cü ayələrdə Allahın vədi barədə nə düşündü?
9. Əgər Allah sizə lütf dolu, amma Məryəmin həyatı kimi əzablı həyat təklif etsəydi, siz ona necə cavab verərdiniz?

## 2.TARLADA ÇOBANLAR (Luka 2:8-20)

**Qısa məlumat:** İsanın dövründə çobanlara aşağı səviyyəli adamlar kimi baxırdılar, çünki onlar Şabbatı saxlaya bilmirdilər. Məsələn, onlar məhkəmədə şahidlik edə bilməzdilər. Əhdi-Ətiqdə mələklər yalnız İbrahim, Yezekel, Daniel kimi Allah adamlarına görünmüşdülər.

1. Yəhudeya dağlarında bu çobanların gündəlik həyatları barədə düşünün. Onların sevinci və əzabları nə idi?
    - Sizcə, Allahın əmrlərinə itaət edə bilməyən çobanlar və Allah arasında hansı münasibət var idi?
2. Yerusəlim çoxlu dindar insanların yaşadığı Bet-Lexemə çox yaxın idi. Nə üçün mələk çobanların əvəzinə, həmin insanların birinə görünmədi?
3. 9-cu ayədə deyilir ki, çobanlar çox qorxmuşdular. Onlar nədən qorxmuşdular?
    - Siz bu gün ən çox nədən qorxursunuz? (Siz öz ürəyinizdə cavab verə bilərsiniz.)
4. Çobanlar mələyin sözlərini eşidəndə niyə sevindilər (10-12-ci ayələr)?
    - Mələklərin 10-11-ci ayələri şəxsən sizə dediklərini təsəvvür edin. Sizcə, siz sevinərdinizmi? Niyə hə, niyə yox?
5. Çobanlar çoxdan gözlənilən Xilaskarın axurda yatdığını eşidəndə nə düşündülər? (Axur heyvanların içində ot yedikləri bir qabdır.)
    - Əgər sizə: “Dünyanın xilaskarı çanaqda yatır” deyilsəydi, özünüzü necə hiss edərdiniz?
6. Mələklərin Allahın çirkli, soyuq, düşmənlərin və bakteriyaların içində doğulmasına sevinməsinin səbəbi nə idi (13-14-cü ayələr)?
    - Nə üçün Xilaskar bu cür şəraitdə doğulmalı idi?
7. Nə üçün Allah Öz oğlunu doğulan kimi kiməsə göstərmək istəyirdi?
8. Çobanlar gecənin yarısı həmin tövləni necə tapdılar?
    - Nəyə əsasən çobanlar axurda yatan körpənin Rəbb Məsih olduğuna inandılar?
9. Ağır gecə keçirən Məryəm və Yusifə çobanların təsəlliverici sözləri nə oldu?
    - Nə üçün Allah mələkləri Məryəm və İsaya deyil, çobanlara göndərdi?
10. Çobanlar Milad gecəsində gördüklərini və eşitdiklərini bir çox insanlara danışdılar. Nə üçün digərləri də gedib körpə İsaya səcdə etmədilər?
11. İsanın məşhur olmasına qədər 30 ildən artıq bir müddət keçdi – çobanların əksəriyyəti o zamana qədər ölmüşdülər. Yeni doğulmuş Xilaskarı görəndən sonra çobanların həyatı necə dəyişdi? Nə olduğu kimi qaldı?
    - Çobanlar bu hadisələr vasitəsilə Allahla münasibətləri haqqında nəyi anladılar?

**XOŞ XƏBƏR:** Milad gecəsində mələklər sülh və sevinc barəsində oxuyurdular. Sülh və sevincin qiymətini İsa ödəmişdi. O, axurda onun əvəzini ödəməyə başladı və çarmıxda buna son qoydu.

## 3. XANNA VƏ ŞİMEON (Luka 2:25-38)

**Qısa məlumat:** Yusif və Məryəmin məbəddə yalnız bir cüt qumru qurban təqdim etməsi faktı onların yoxsul olduğunu göstərir. Levililər 12:7-8. Bir çox insanlar Məsihi gözləyirdilər, amma əksəriyyəti Onun hamıya Öz qüdrət və səlahiyyətini nümayiş edəcəyini düşünürdülər.

1. Xannanın həyat yoldaşı yeddi illik ailə həyatından sonra öləndə onun nələrdən keçdiyini təsəvvür edin (36-cı ayə).
    - Nə üçün Xanna həmin dövrdə adət-ənənə olduğu kimi, yenidən ərə getmək istəmədi? Müxtəlif səbəbləri düşünün.
    - Xannanın 50-60 illik dul həyatının mənası nə idi (36-37-ci ayələr)?
2. Sizcə, Xanna gecə-gündüz məbəddə nə üçün dua edirdi?
    - 38-ci ayə Xannanın imanı barədə nəyi göstərir? (Onu nəyə görə satın alma lazım idi?)
3. İndi isə Şimeonun İsanı görməmişdən əvvəl hansı həyatı yaşadığını – onun sevinc və əzablarının nə olduğunu təsəvvür edin (25-26-cı ayələr).
    - Şimeon üçün Allahın vədi nə kəsb edirdi (26-cı ayə)?
4. Yaşlı adamın gələcəkdə nəyinsə olacağına ümid etməsi nə deməkdir?
    - “Gözləmək” sözünün “iman” sözü ilə hansı ortaq mənası vardır?
    - Şimeonun gözlədiyi Məsih ilə insanların əksəriyyətinin gözlədiyi Məsih arasında nə fərq vardır? (Qeydə və 25-ci ayəyə baxın.)
5. Şimeon Rəbbin Məsihini yoxsul ailənin körpəsi simasında necə gördü?
    - Nə üçün məbədə gələn digərləri Xanna və Şimeonun gördüklərini görmürdülər?
6. Mətnə diqqətlə baxın və bu iki yaşlı adamın Məsihin nə cür xilas gətirəcəyini gözlədiklərini göstərən işarələri tapın (25, 31, 32, 38-ci ayələr)?
    - Siz İsadan ən çox nə istəyirsiniz?
7. İnsanın ölməyə hazır olduğunu deməsi nə məna verir (29-cu ayə)?
    - Şimeonun sözlərini öz həyatınıza tətbiq edin. Siz 29-30-cu ayələrdə onun dediyi kimi edə bilərsinizmi?
8. Şimeonun sözləri Məryəmə körpəsi barəsində hansı yeni məlumatı verdi (30-35-ci ayələr)?
    - Qılınc Məryəmin ürəyinə necə saplandı? (Cavab bu mətndən gəlir.)
9. Xanna və Şimeon İsanı bir daha görmədilər. Körpə İsa ilə görüş onların həyatını hansı cəhətdən dəyişdi? Nə olduğu kimi qaldı?
10. Bu iki insan ölümlərinə qədər hansı çağırışa malik idilər?
    - Bizim dövrümüzdə bir çoxları peyğəmbərlik ənamına maraq göstərirlər. Nə üçün Xanna peyğəmbər adlandırıldı? 36-cı ayəyə baxın.

**XOŞ XƏBƏR:** Əgər siz Allahın Kəlamı vasitəsilə İsanı görmüsünüzsə, Şimeon kimi deyə bilərsiniz: “İndi, Rəbb, Sən Öz vədinə əməl etmisən və indi Öz qulunu sülh içində buraxa bilərsən. Mən öz gözümlə Sənin xilasını görmüşəm.”

## 4. YENİYETMƏ İSA

**Qısa məlumat:** Yəhudi oğlanlar 13 yaşa çatırlar. İsanın dörd qardaşı və bir neçə bacısı vardı (Matta 13:55-56). Onun atası dülgər idi və İsa da atasının peşəsini öyrənmişdi. Yəhudilərin öz günahlarına görə qurban gətirməsinə icazə verilən yeganə yer məbəd idi. Allah vəd etmişdi ki, Onun hüzuru həmişə həmin yerdə olacaqdır.

1. Məryəm böyüyən ailənin qayğısına qalmalı idi. Sizcə, hər il Pasxa bayramında onun üçün səfərə çıxmaq nə demək idi?
    - Bu iki həftəlik səfəri həyata keçirmək üçün Məryəm hansı hazırlıqları görməli idi?
2. Böyüyən ailənin böyük oğlu olan İsanın gündəlik həyatını təsəvvür edin.
    - Balaca İsanın valideynləri ilə Yerusəlimə səfər edəcəyi onun üçün nə məna kəsb edirdi?
3. Nə üçün İsa valideynlərinə onlarla qayıtmayacağını əvvəlcədən demədi?
    - Nə üçün İsa məhz məbədə getmək istəyirdi?
4. 46-47-ci ayələr İsa haqqında bizə nə deyir?
    - Bu 12 yaşlı oğlanı hər şeydən əvvəl nə maraqlandırırdı?
5. İsa valideynlərinin Onun harada olduğunu bilmədiklərinə niyə təəccübləndi?
6. Səmavi Atası ilə məbəddə deyil, olduğu yerdə görüşmək İsa üçün niyə vacib idi?
7. 48-ci ayə bizə Məryəm haqqında nəyi göstərir?
    - Məryəm oğlunu gözdən itirəndə necə reaksiya verməli idi?
8. İsanın valideynləri 49-cu ayədə onun cavabını eşidəndə özlərini necə hiss etdilər?
    - İsa bu hadisə vasitəsilə valideynlərinə nəyi öyrətmək istəyirdi?
9. Mətnə əsasən, bizim nə vaxt valideynlərimizə qarşı çıxmağa imkanımız var?
    - Bu mətnə əsasən, yeniyetmə üçün Allahın iradəsi nədir?
    - Bu mətnə əsasən, biz yeniyetmələrimizlə necə davranmalıyıq?
10. İsanın bu hadisə və ictimaiyyət qarşısında xidmətini başlaması arasındakı 18 il ərzində valideynləri ilə Özü arasındakı münasibət necə idi (51-52-ci ayələr)?

**XOŞ XƏBƏR:** İsanın məbədi xoşlamasının səbəbi Yəhya 2:19-21-ci ayələrdə verilmişdir. Rəhbər həmin hissəni oxuya bilər.

## 5. VƏFTİZÇİ YƏHYANIN XƏBƏRİ (Luka 3:7-20)

**Qısa məlumat:** Yəhyanın artıq həmin dövrdə valideynləri vəfat etmişdi . Onun nə qohumları var idi, nə də ailəli idi. Yəhyanın yaşadığı yer kimsəsiz səhra idi.

1. Əgər Yəhya daim dostlarının əhatəsində olsaydı, necə insan olardı?
   - Özünüzü tənha hiss etdiyiniz zamanlar haqqında düşünün. Tənhalığın sizin həyatınızda hansı müsbət cəhətləri oldu?
2. Yəhya öz dinləyicilərinə "gürzələr nəsli" (7-ci ayə) deyə müraciət edirdi. Nə üçün o, heç vaxt İsa qədər məşhur olmadı?
3. 7-14-cü ayələrdə Yəhyanın sözlərinə baxın. Biz öz ətrafımıza bu sözü necə tətbiq edə bilərik?
   - Bu nitqdə sizin vicdanınıza nə toxunur?
   - Əgər hamı Yəhyanın bizə dediyi kimi yaşasaydı, dünya necə olardı?
4. Yəhyanın sözlərini, adətən, məsihçi toplantılarında eşitdiyiniz sözlərlə müqayisə edin. Fərq nədədir?
   - Əgər sizin məsihçi cəmiyyətinizdə və ya toplantınızda kimsə Yəhyanın etdiyi kimi təbliğ edərdisə, sizə necə təsir bağışlayardı?
5. 4-6-cı ayələr bizə deyir ki, Yəhyanın tapşırığı insanların ürəklərində Məsihin gəlişinə yol hazırlamaq idi. Yəhyanın sözləri kimi birbaşa deyilən sözlər bizim ürəklərimizdə İsanın gəlişinə hansı tərzdə yol hazırlayır?
   - Əgər Yəhya: "Allah sizin zəifliklərinizi anlayır və sizi olduğunuz kimi qəbul edir!" - deyə, təbliğ etsəydi, necə olardı?
6. Yəhyanın gələn Məsihə münasibəti necə idi (15-17-ci ayələr)?
   - Nə üçün Yəhya məşhurluğundan öz xeyrinə istifadə etmədi?
7. Yəhya padşah Hirodun öz şəxsi həyatında etdiyi günahı ifşa etdi (19-20-ci ayələr). Yəhya nə üçün padşahın cinsi həyatına müdaxilə etmək istədi?
   - Biz hansı hallarda insanları zinaya görə ifşa edə bilərik?
8. Yəhya həbsxanada edam ediləndə, onun yalnız 30 yaşı vardı. Onun qısa həyatının mənası nə idi?
   - Bu peyğəmbərin həyatında ən böyük xoşbəxtlik nə ola bilərdi?
9. İsa da Vəftizçi Yəhyanın sözlərini eşidənlərin arasında idi. O, yalnız yaxşı bəhrə gətirən ağac idi. O zaman, nə üçün "kəsilir və oda atılır" (9-cu ayə)?

**XOŞ XƏBƏR:** Yəhyanın dedikləri oxuculara günahlarını dərk etdirən çoxlu sayda əmr və xəbərdarlıqlardan ibarətdir. Lakin bir başqa müjdədə Yəhya Məsihin bizim günahlarımızı necə aradan qaldıracağını bəyan edir: "Dünyanın günahını aradan qaldıran Allahın Quzusu budur!" (Yəhya 1:29).

## 6.İSANIN XİDMƏTƏ BAŞLADIĞI İLK GÜN (Luka 4:31-37)

**Qısa məlumat:** Daxilində pis ruh olan insanı "cinə tutulmuş" adlandırırıq. Cinə tutulmaq, sadəcə olaraq, əqli çatışmazlıqdan fərqlidir. Bu, eynilə imanlının ürəyində Müqəddəs Ruhun yaşadığı kimi, pis ruhun da insanın ürəyində yaşaması kimidir. Pis ruh insana bütlərə sitayiş, cadugərlik, baxıcılıq, kult vasitəsilə şəfalar, müəyyən növ rok musiqisi və s. vasitəsilə daxil olur. Cinə tutulmuş insan bəzən qəribə emosional hərəkətlər edir, heyvan kimi səslər çıxarır ve qeyri-adi gücə malikdir.

1. Siz iblisin və pis ruhların varlığına inanırsınızmı?
    - Əgər ruhlara tutulma və ya buna oxşar hadisələr eşitmisinizsə, zəhmət olmazsa, qısa şəkildə bizimlə bölüşün.
    - Nə üçün insanların çoxu qaranlıqdan, kabuslardan, ruhlardan və bütlərdən qorxurlar?
2. Cinə tutulmuş insanın gündəlik həyatını təsəvvür edin – xüsusilə də, onun ailə həyatını və digər münasibətlərini düşünün.
    - Bu, İsanın Kefernahumda keçirdiyi ilk Şabbat idi, bu da o deməkdir ki, insanlar Onu görmək üçün Sinaqoqa gəlməmişdilər. Sizcə, cinə tutulmuş insan istənilən vaxt "tutmaları" olduğunu bildiyi halda, məbədə gəlmişdi?
3. Nə üçün pis ruhlar İsanın yanına gələndə, adətən, ağlayır və azğınlaşırlar?
    - Pis ruhun İsa haqqında nə bildiyini öz sözlərinizlə söyləyin (34-cü ayə).
    - Ruh İsa haqqında dediklərində haqlı idimi?
4. Nə üçün İsa insana deyil, ruha müraciət etdi?
    - İsa pis ruhun Ona verdiyi suallara niyə cavab vermədi (34-35-ci ayələr)?
5. Nə üçün insan yardım istəməsə də belə, İsa cinə tutulmuş insana yardım etdi?
    - Yəqin ki, siz kiminsə adamdan pis ruhu çıxardığı haqqında hekayələr eşitmisiniz. Onların etdikləri İsanın etdiyindən nə ilə fərqlənirdi?
6. İnsanlar İsanın hansı hərəkətinə daha çox təəccübləndilər (32, 36-cı ayələr)?
    - İsanın sözləri başqa insanların sözlərindən necə fərqlənir?
    - Hal-hazırda hansı problem və ya hansı insan üçün sizə İsanın qüdrətli sözü lazımdır? (Siz öz ürəyinizdə bu suala cavab verə bilərsiniz.)
7. Mətnə əsasən, qaranlıqdan, ruhlardan, kabuslardan, bütlərdən və iblisin gücündən qorxan insanlara nə deməlisiniz?
    - Sizcə, dövrümüzün Məsihçi Cəmiyyəti ruh dünyası tərəfindən tutulmuş insanlara nə dərəcədə kömək edir?
8. Nə üçün İsa Öz xidmətini belə bir hərəkətlə başladı?
9. Günaha batmış və cinə tutulmuş insan arasındakı fərq nədir?
10. (Son üç suala cavab bu mətndən irəli gələcəkdir.)
    - İsa pis ruhlara əmr vermək səlahiyyətini haradan aldı?
    - İsa iblisi və onun ruhlarını necə məhv edəcəkdir (34-cü ayə)?
    - O, pis ruhları məhv etmək səlahiyyətinə malik olduğuna baxmayaraq, nə üçün nəticədə İsa Özü onlar tərəfindən məhv edildi?

Huom! Kysymyksen 10 viimeinen kohta oli vaikea ymmärtää , myös Iradalle. Helpompi esittää asia kahdella lauseella ja kysyä suoraan, miksi Jeesus kuoli. (Elsa)

Esim. İsa pis ruhları məhv edə bildi. O baxmayaraq , Niyə İsa öldü?

## 7. BÖYÜK BALIQ OVU (Luka 5:1-11)

**Qısa məlumat:** Peterin qayınanası vardı (Luka 4:38-39) ki, bu da onun arvadı və uşaqları olduğunu göstərir. Peter balıqçı idi - əgər o, balıq tutmasaydı, ailəsini dolandıra bilməzdi. Onlar gecə Ginesar göləndə (günün günorta çağı deyil) və gölün dərin yerində deyil, dayaz yerlərdə balıq tuturdular.

1. Əgər sizlərdən kimsə gecə növbəsində işləyibsə, həmin gecənin səhəri özünüzü necə hiss etdiyinizi deyə bilərsinizmi?
   - Peterin uğursuz iş gecəsindən sonra (2-ci ayə) torları yuyarkən nə barədə düşündüyünü təsəvvür edin.
2. İsa nə üçün insanları öyrədərək qayıqda olmaq istəyirdi (3-cü ayə)?
   - Sizcə, İsa nə üçün Peterin qayığını Özünə xitabət kürsüsü seçdi?
3. Peter torları yenicə yumuşdu. Bundan əlavə, Peter balıq tutmaqda təcrübəli idi, İsanın isə təcrübəsi yox idi. Digər balıqçılar qarşısında rüsvay olacağına baxmayaraq, İsanın əmrlərinə itaət etməyə Peteri nə vadar etdi (4-5-ci ayələr)?
   - Necə düşünürsünüz: Peter balıq tutacağına inanırdımı?
4. Əgər İsa sizdən qeyri-mümkün olduğunu düşündüyünüz bir şeyi etməyinizi istəyərdisə, Ona necə cavab verərdiniz?
5. Bir neçə il bundan əvvəl Ginesar gölünün palçıqlığında İsanın dövrünə aid balıqçı qayığı tapılmışdı. O, təxminən səkkiz metr uzunluqda və iki metrdən artıq endə idi. Belə bir qayıqdan ikisi hərəsi bir kiloqram olan nə qədər balıq tuta bilərdi (7-ci ayə)?
   - Bütün bu balıqlara nə oldu?
6. Peterin bu möcüzəyə reaksiyasında sizi təəccübləndirən nədir?
   - 8-ci ayədə Peter o sözləri deyərkən ağlında hansı günahını tutmuşdu?
7. Peter İsanın təbiəti haqqında bu möcüzədən nəyi öyrəndi? (5 və 8-ci ayələrdə onun İsaya necə müraciət etdiyinə də baxın.)
   - Peteri nə qorxutdu?
8. Yalnız 10-cu ayədə Peterin etirafından sonra İsa həmin sözləri dedi?
   - Balıqçının müjdəni təbliğ edən insanla nə ortaq cəhətləri vardır?
9. Peter ailəsini tərk edib İsanın ardınca getdikdən sonra onların aclıq çəkməyəcəyinə hansı zəmanəti vardı?
   - Siz İsanın əmr etdiyi yerə getməyə qərar versəniz, ailənizin bundan əziyyət çəkməyəcəyinə əminsinizmi?

**XOŞ XƏBƏR:** Şimon günahkar insanın Müqəddəs Allahın yanına gələ bilməyəcəyini düşünərkən səhv etmirdi. O, Əhdi-Ətiqin nə dediyini bilirdi: Allaha yaxınlaşan günahkar öləcəkdir. Buna görə də, İsa Şimonun qorxduğu qisməti yaşamalı idi – O, ölümü ilə üzləşəndə Allah tərəfindən tərk edilmişdi.

Myös tässä viimeinen lause oli Iradalle todella vaikea. Kysyn ensi viikolla mahdollista uutta muotoilua. (Elsa 6.5.)

## 8.KİM, HƏQİQƏTƏN DƏ, BƏXTİYARDIR? (Luka 6:20-26)

**Qısa məlumat:** Orijinal yunan dilində "bəxtiyar" sözü "çox xoşbəxt" mənasını ifadə edir. Bu mətndə verilmiş "varlı"lar bu həyatda istədikləri hər şeyə: pul, məhəbbət və sağlamlığa malik olanlardır. "Yoxsullar" bu şeylərə heç vaxt malik olmayan və ya onları itirənlərdir ("Yoxsul" sözünü, "ruhən yoxsul" kimi şərh etməməyinizi xahiş edirik, İsa onu nəzərdə tutmur.).

1. Bu mətnə əsasən, insanın həqiqi bəxtiyarlığı nədir?
    - Bu mətnə əsasən, həqiqi bədbəxtlik nədir?
2. İsanın dediklərinə əsasən, yoxsulluğun müsbət cəhəti nədir? ("Yoxsul" sözünün mənasına yuxarıdakı qeyddə baxın.)
    - Varlı olmağın mənfi cəhəti nədir? (Yuxarıda verilmiş qeydə baxın.)
    - Siz bu iki qrupdan hansına aidsiniz? (Siz öz ürəyinizdə cavab verə bilərsiniz.)
3. Bu dünyadakı insanların çoxu yeməkləri olmadığına görə acdırlar. İsa onların bəzilərini necə bəxtiyar adlandıra bilər?
    - Bizim cəmiyyətdə çoxları məhəbbət və hörmət arzusundadırlar. İsa onların bəzilərini necə bəxtiyar adlandıra bilər?
4. Əvvəllər sizi həqiqətən kövrəltmiş bir vəziyyət haqqında düşünün. Həmin vaxt İsa gəlib sizə: "Nə bəxtiyarsınız, ey indi ağlayanlar" desəydi, özünüzü necə hiss edərdiniz?
    - Heç vaxt ağlamayan bir insanı təsəvvür edin. Nə üçün həmin insanı xoşbəxt adlandırmaq çətindir?
5. Nəyə əsasən, İsa ağlayan şagirdlərinin bəxtiyar olduğunu bəyan edə bilərdi?
    - Ağlayan şagirdlər ağlayarkən xoşbəxtdirlər, yoxsa sonra gülərkən?
6. Var-dövlət, təmin olunmaq, gülüş və haqqında yaxşı danışılmaqda nə yanlışlıq var ki?
    - Varlı, xoşbəxt, gülən insanların ağlayacaqları vaxt nə vaxt gələcək?
7. Niyə həqiqəti danışanlara nifrət edilirdi və nə üçün yalançı peyğəmbərlərin haqqında yaxşı şeylər danışılırdı (22,26-cı ayələr)?
    - Sizcə, təqib olunarkən şadlanan və sevincdən atılıb-düşən insanlar varmı (23-cü ayə)? Əgər varsa, onlar nə üçün belə reaksiya verirlər?
8. Yoxsul, nakam, ağlayan və tənqid edilən insanlar varlı və s. insanların malik olmadığı nəyə sahibdirlər?
9. Nə üçün İsa dünyada olan bütün digər əziyyət çəkənləri deyil, Öz şagirdlərini bəxtiyar adlandırır (20-ci ayə)?
10. Gəlin, bu ayələri İsanın həyatına aid edək. Aşağıdakıları müzakirə edin: İsa çarmıxa çəkilərkən bəxtiyar idimi? Nə üçün hə? Nə üçün yox?
    - Allah nə üçün İsaya əzab çəkərkən təskinlik vermədi?

## 9.ÖZ DÜŞMƏNLƏRİNİZİ SEVİN! (Luka 6:27-38)

**Qısa məlumat:** Bu mətni oxuyarkən, keçən həftə barədə düşünün – gündəlik həyatınızda nə dərəcədə bu əmrlərə riayət etmisiniz?

**27-30-cu ayələr**

1. Əksəriyyətimiz, yəqin ki, razı olacağıq ki, hamı İsanın öyrətdiyi kimi yaşamalıdır. Nə üçün belə yaşamaq çətindir?
    - İsa, sadəcə olaraq: "Düşmənlərinizə qarşı mehriban olun!" desəydi, Onun təlimlərinə riayət etmək asan olardımı?
2. Ailədə, məktəbdə və ya işdə bu qaydalara əməl etməyə başladığınızı təsəvvür edin. Sizcə, ailəniz / məktəbiniz / işiniz necə dəyişəcək?
    - Sizcə, əgər xoşlamadığınız kimsə üçün dua etsəniz, onunla münasibətləriniz yaxşılaşacaqmı (28-ci ayə)?
3. İsa bütün bu qanunlara dəqiqliklə əməl edirdi. Bəs nə üçün Onun bu qədər çox düşmənləri vardı?
4. Başqasına nifrət edən adama nifrət necə ziyan vurur?

**31-38-ci ayələr**

5. Bu ayələrdə təsvir olunan "Haqq-Taalanın övladları" və "günahkarlar" arasında əsas fərq nədir?
    - Siz Haqq-Taalanın övladları və günahkarlara hansı münasibətdə oxşayırsınız?
6. Başqaları haqqında şikayətlənən insanlar onları nəzərə almadıqlarına görə necə səhv edirlər (36-38-ci ayələr)?
    - Şərtsiz məhəbbətə hamıdan çox ehtiyacı olan insanlar kimlərdir?
7. 35-ci ayə də, İsanın düşmənləri olsaq belə, bizə qarşı məhəbbətini təsvir edir. Ayəni oxuyun və suala cavab verin: Qeyri-şərti məhəbbətə inanmaq insan üçün çətindir, yoxsa asandır?
8. Bu əmrlərə riayət edənlərə böyük mükafatlar vəd olunmuşdur (35-ci ayə). İsa bunu etdi, lakin mükafat almaq əvəzinə, çarmıxa çəkildi. Niyə?
9. Biz düşmənlərimizi sevməyi necə öyrənə bilərik?
    - Düşmənlərini sevməyi öyrənməyən insanlar necə Haqq-Taalanın övladları ola bilərlər?

**XOŞ XƏBƏR:** Sözün əsl mənasında, yalnız İsa Haqq-Taalanın Oğlu idi. O, Öz düşmənlərini sevirdi və son nəfəsinə qədər onlar üçün dua edirdi. Amma İsa mükafatı Özünə götürmədi, O, bunu Onun əmrlərinə riayət edə bilmədiklərinə görə əfv diləyənlərə verir.

## 10. HƏYATINIZIN TƏMƏLİ (Luka 6:45-49)

1. İsa 45-ci ayədə kimi təsvir edir?
2. Ev və insan həyatı arasındakı oxşarlıqlar nədir? Mümkün qədər çox oxşarlıqları tapın.
    - Nə üçün insanlar evin/həyatın təməlini deyil, hasarını vacib hesab edirlər?
3. İnsanlar həyatlarının təməlinə hansı müxtəlif şeyləri edə bilərlər?
    - İnsanların əksəriyyətinin həyatlarını ilk əvvəl "dərindən qazmadan" tikməklərinin səbəbi nədir?
4. İsa insan həyatına zərbə vuran "daşqın" və "sellər" deməklə nəyi nəzərdə tuturdu?
    - Əgər hal-hazırda qorxduğunuz "daşqın" vasitəsilə sizin həyatınıza zərbə vurulubsa, siz bu vəziyyətin öhdəsindən necə gələrsiniz?
5. Bu məsələ əsasən, "daşqın" həm məsihçi, həm də qeyri-məsihçilərin həyatına zərbə vurur. Nə üçün məsihçilər qorunmur?
6. Həyatınızda fəlakət baş verdiyi bir vaxtı düşünün. Həmin vaxt nədən yapışdınız?

    Bədbəxtlik baş verən zaman İsanın sözləri sizə necə kömək etdi? Zəhmət olmazsa, öz təcrübəniz ilə bölüşün.
7. Evi dağılan adam necə olur? (Fəlakətdən sonra o, necə həyat sürür?)
8. Kiminsə İsanın sözlərini eşidib onlara əməl etməməsinin səbəbi nə ola bilər?
    - İnsanı İsanın sözlərinə əməl etməsinə nə məcbur edir?
    - Siz bu iki qrupdan hansına aidsiniz? (Siz öz ürəyinizdə bu suala cavab verə bilərsiniz.)
9. İsanın sözlərinə əməl etmək başqa şeylərlə yanaşı bizə keçən dəfə deyilənləri də yerinə yetirməkdir: düşməninizi sevin. Siz bu sözlərin həyatınızın təməli olduğunu deyə bilərsinizmi?
10. "Qaya" sözünün Müqəddəs Kitabda daha bir mənası vardır. Paul 1 Kor. 10:4-də deyir: "O Qaya da Məsih idi." Həyatınızı İsanın əmrləri (qanun) və ya İsanın Özü (müjdə) üzərində qurmaq arasındakı fərq nədir?
11. İsa Özü bütün əmrlərə əməl edirdi. Bəs onda nə üçün "daşqın" onun həyatını dağıtdı?

## 11. NAİNDƏN OLAN DUL QADIN (Luka 7:11-17)

**Qısa məlumat:** İnsanlar İlyas və Elişanın Əhdi-Ətiqdə dul qadının oğlunu necə diriltdiyini xatırladıqlarına görə, İsanı böyük peyğəmbər adlandırırdılar (16-cı ayə).

1. Nə üçün bu qədər insanın cənazəyə qoşulmaq istəməsinin müxtəlif səbəbləri barədə düşünün (12-ci ayə).
2. Həmin dul qadının həyatı barədə düşünün. Hamının mümkün qədər çox övlad sahibi olmaq istədiyi bir dövrdə o dul qadının yalnız bir övladı vardı. Sizcə, ata hələ sağ ikən bu kiçik ailənin həyatının əsas xüsusiyyəti nə idi?
    - Bu qadının əri öləndə onun üçün ən pis şey nə idi?
3. Ana öz oğlunu tək böyüdəndə hansı maddi və psixoloji problemlər yarana bilər?
4. Ana öz oğlunun cənazəsinin yanından keçərkən Allah haqqında, sizcə, nə düşünə bilərdi?
5. Gənc oğlan öldüyü zaman İsa, Naindən 40 kilometr aralıda yerləşən Kefernahum şəhərində idi (Luka 7:1). Yas mərasimi dərhal növbəti gün keçirildi. Nə üçün İsa hətta bu cür uzun məsafəni tələsərək piyada gəlməli olsa belə, həmin yas mərasiminə gəlmək istəyirdi?
    - Nə üçün İsa heç bir zaman Ondan kömək istəməyən dul qadına yardım etmək istəyirdi?
6. Hansı vəziyyətlərdə Allahın köməyinin sizə vaxtında çata bilməyəcəyini hiss etmisiniz?
    - Biz İsadan köməyin heç bir zaman gec gəlmədiyinə necə əmin ola bilərik?
7. Nə üçün İsa ağlayan anaya: “Ağlama!” dedi?
    - İsa bu gün sizə də deyir: “Ağlamayın!” O, bununla nə demək istəyir?
8. İsa gənc oğlanı ölülərdən necə diriltdi?
9. Luka: “İsa onu anasına verdi” deyərkən, nəyi nəzərdə tuturdu?
    - Sizcə, bu hadisə ana ilə oğul arasındakı münasibəti necə dəyişdi?
10. Səmavi Ata da Öz Oğlunun məzara aparıldığını görməli idi. Sizcə, Atanın kədəri dul qadının kədərindən az idimi?
    - 16-cı ayədə deyilir: “Allah Öz xalqına nəzər saldı.” Nə üçün Öz Oğlu ölərkən Allah Ona yardım etmədi?

## 12. ÇOX BAĞIŞLANAN (Luka 7:36-50)

**Qısa məlumat:** Bu mədəniyyətdə qadınlar ictimaiyyət qarşısında öz saçlarını göstərməli deyildilər. 44-46-cı ayələrdə qonaqların evdə qarşılanarkən nə qədər hörmətli olduqları təsvir edilir.

1. İsanı evinə dəvət edən farisey Şimon Onun haqqında nə düşündü (36, 39, 44-46-cı ayələr)?
    - Sizcə, Şimon İsanı ilk növbədə nə üçün dəvət etmişdi?
2. Hamı həmin qadını tanıyırdı, çünki o, şəhərin fahişəsi idi (37-ci ayə). O qadın böyüyərkən keçdiyi həyatı təsəvvür etməyə çalışın – sizə onu fahişə olmağa nə vadar etmişdi? Müxtəlif ehtimalları düşünün.
    - Bu qadın həyatında kimsə tərəfindən sevilmək təcrübəsinə malik idimi?
3. Ətir ilə dolu ağ mərmər qab kifayət qədər bahalı idi. Bu qadının pul yığaraq həmin qabı almasının müxtəlif səbəblərini düşünün.
4. Nə üçün həmin qadın İsanı görməyi bu qədər çox arzu edirdi? O, yəqin ki, fariseyin evində xoş qarşılanmayacağından əmin idi!
    - İsanın bu qadını inkar etməyəcəyinə nə inandırdı?
5. Bu qadın nə üçün İsaya toxunmaq istəyirdi?
    - Nifrət etdiyimiz kimsə və ya nəsə tərəfindən bizə toxunulanda nə baş verir?
    - Qadın İsaya toxunanda nə baş verdi?
6. Bu qadını İsanın ayağını yaş edəcək qədər ağladan nə idi?
7. Bu qadının vəziyyətində birinci nə gəlirdi: Onun İsaya imanı, yoxsa Ona məhəbbəti? Mətnə əsasən, cavablarınızı verin.
    - Əgər siz nə vaxtsa İsanı bütün qəlbinizlə sevdiyinizi hiss etmisinizsə, bu, hansı vəziyyətdə olub?
8. 41-42-ci ayələrdə İsa bizə sələmçi haqqında bir hekayə danışır (Beş yüz dinar 12 illik əmək haqqına bərabərdir. Əlli dinar 12 aylıq əmək haqqına bərabərdir.). Burada günah borca oxşadılıb. İsa Şimona bu hekayə vasitəsilə nəyi öyrətmək istəyirdi?
    - İsanın Öz məsəlində haqqında danışdığı Şimonun günahları nə idi?
9. Qadının Allaha günah-borcunun aqibəti necə oldu?
10. Sizin bütün günahlarınızdan tamamilə xəbərdar olan İsa indi sizə 48 və 50-ci ayələrdə verilən sözləri deyir. Siz Ona nə cavab verirsiniz?

## 13. ƏKİLƏN TOXUM MƏSƏLİ (Luka 8:4-15)

**Qısa məlumat:** Səpilən toxum məsəli İsanın ilk məsəli, Onun ictimai xidmətinin üç ilinin gündəliyi idi.

1. Nə üçün İsa Allahın Kəlamını toxum ilə müqayisə edir? Mümkün qədər çox oxşarlıqlar tapın.
    - İsa bu məsəl vasitəsilə gələcək xidməti haqqında nə demək istəyirdi?
2. İblis Allahın Kəlamını bizim ürəklərimizdən hansı konkret yollarla uzaqlaşdırır (5, 12-ci ayələr)?
    - Biz 12-ci ayənin həyatımızda baş verməsinin qarşısını necə ala bilərik?
3. 6 və 13-cü ayələrə baxın. İnsanın məsihçi imanından uzaqlaşmasına hansı sınaqlar səbəb ola bilər?
    - 13-cü ayədə insanlar nəyə şadlanırdılar?
    - İsa "kökləri" olmayan məsihçilər deməklə nəyi nəzərdə tuturdu?
4. "Həyatın qayğıları, var-dövləti və zövqləri" Allahın Kəlamını bizim həyatımızda necə boğa bilər (7, 14-cü ayələr)?
    - Nə üçün var-dövlət məsihçilər üçün yoxsulluqdan daha böyük bir problem kimi görünür?
    - Biz həmin qayğıların, var-dövlətin və zövqlərin getdikcə, bizi Allahın Kəlamından ayırdığını görəndə nə etməliyik?
5. Pis torpaq münbit torpağa necə dönür (8, 15-ci ayələr)?
    - Hansı şərtlərdə insan həyatı bəhrə gətirə bilər?
6. Bu dörd növ torpaqdan hansı hal-hazırda sizin ürəyinizin vəziyyətini əks etdirir? (Siz öz ürəyinizdə cavab verə bilərsiniz.)
7. İsa "yüz qat səmərə" deyərkən nəyi nəzərdə tuturdu (8-ci ayə)?
    - Nə üçün bizim dövrümüzdə məsihçilərin əksəriyyəti bir gecə içərisində "səmərə" əldə edəcəklərini gözləyirlər?
8. Bu məsəl bizə müjdəçilik haqqında nəyi öyrədir?
    - Bu mətn "səlahiyyət müjdəçiliyi" haqqında  nəyi öyrədir? (Əgər siz termini bilmirsinizsə, sualdan ötə bilərsiniz.)
9. Müqəddəs Kitabda İsa Allahın Kəlamı ilə eyniləşdirilmişdir (Rəhbər Yəhya 1:1-ci ayəni oxuya bilər.). İsa və toxum arasındakı oxşarlıq nədir?

**XOŞ XƏBƏR:** İsa bü dünyada olduğu son gecədə növbəti sözləri dedi: "Bəşər Oğlunun izzətlənmək vaxtı gəldi. Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir... İsa bu sözü söyləməklə necə bir ölümlə öləcəyinə işarə etdi" (Yəhya 12:23,33). Bununla da, deməli, bu məsəldə adı çəkilən toxumun mənası əslində (İsanın) çarmıxıdır.

## 14. MƏN SƏNİN ARDINCA GEDƏCƏYƏM (Luka 9:57-62)

1. Bu mətndə İsanın ardınca getməyin nəyə başa gələcəyini hesablayan üç insan vardır. Siz hansı vəziyyətdə buna oxşar hərəkət etmisiniz?

2. Nə üçün İsa, sadəcə olaraq, ilk gördüyü insana: "Mənim dəstəmə xoş gəlmisiniz!" demədi (57-58-ci ayələr)?

   - İsa 58-ci ayədə verdiyi cavabla həmin insana nə demək istəyirdi?

3. Əgər İsanın sizə təklif etdiyi yeganə həyat 58-ci ayədə təsvir edilmiş kimi olsaydı, necə reaksiya verərdiniz?

   - İsa Allahın Oğlu olduğuna baxmayaraq, nə üçün 58-ci ayədə təsvir edilən həyat tərzi aparmalı idi?

4. İkinci insan üçün birinci yerdə nələr dururdu (59-60-cı ayələr)?

   - İkinci insanın həyatında birinci yerdə duran şeyləri öz həyatınızın ilə müqayisə edin.

   - Siz belə vəziyyətdə övladlarınızın necə etmək istərdiniz?

5. Ailə üzvlərindən birinin ölümü bizim İsanın ardınca getməyimizin mümkün olmadığını düşünməyimizə necə gətirib çıxara bilər?

6. Üçüncü insanın bir dəfə daha evinə baş çəkmək istəməsinin həqiqi səbəbi nə idi (61-62-ci ayələr)?

   - Nə üçün İsa ona bu kiçik təsəllini vermədi?

7. Sizcə, həmin üç insan arxada qalmaq istəsəydi, onların həyatlarının aqibəti (gələcəyi) necə olardı? Onlar Allahın padşahlığını bəyan etməyi seçsəydilər, necə olardı?

8. Bir çox mədəniyyətlərdə, İsanın dövründə olanlar da daxil olmaqla, oğul üçün valideynlərə hörmət etmək ən vacib şey idi. Nə üçün İsa bu yerdə Öz mədəniyyətinə qarşı gedir?

   - (Başqa yerdə) İsa da həmçinin, anaya və ataya hörmət etməyin nə qədər vacib olduğunu öyrədirdi. Biz bu mətni əmr ilə necə uyğunlaşdıra bilərik?

9. Sizcə, indi bizim cəmiyyətlərdə İsanın həmin üç nəfərə xəbərdarlıq etdiyi kimi, gənclər İsanın ardınca getməyin çətinliklərindən xəbərdardırlarmı?

10. Siz Allahın padşahlığında xidmətə yararsız olduğunuzu bilsəydiniz, nə edərdiniz?

**XOŞ XƏBƏR**: İsa bu sözləri deyərkən, Yerusəlimə gedən yolda idi. O, işə başladıqdan sonra geriyə baxmadı, əksinə, qətiyyətlə əzablara və ölümə doğru addımladı. O, Allahın Padşahlığı üçün hazır və layıq idi – bəlkə də layıq olan yeganə şəxs O idi. O da bizi Allahın Padşaqliğa layıq etdi.

## 15. GÖYLƏRDƏ YAZILAN AD (Luka 10:17-20)

**Qısa məlumat**: Tarixçəni bilmək üçün 1 və 9-cu ayələri oxuyun. Bu mətn Qalileyin dirçəlişinin ən həlledici anından – hansı yolu seçəcəyindən danışır. 9.1 sualı üçün Yar. 3:15 ayəyə baxın.

1. Sizcə, Rəbbin Cəmiyyətlərində olan insanlar həmin 70 insanın gücünə malik olsaydılar, nə baş verərdi?
   - Nə üçün yetmiş nəfər İsaya xidmətlərinin yalnız bir nöqteyi-nəzərindən hesabat verdilər?
2. Nə üçün insanlar, adətən, qüdrət və səlahiyyətə malik olmağı xoşlayırlar?
   - Onun şagirdləri öz uğurlarına görə sevinəndə, İsa nə üçün onlarla bərabər sevinmədi?
3. Kiminsə xidməti və ya kiminsə adının göylərdə yazılmasının xoşbəxtliyi arasındakı fərq nədir?
   - Yer üzərində olan şeylərə görə sevinmək, göylərdə olan şeylərə görə sevinməkdən nə ilə fərqlənir?
4. Cinləri çıxarmaqdan sevinc alan şagird nəyi vəz edir?
   - Adının göylərdə yazılmasından gələn sevincə malik olan şagird nəyi vəz edir?
5. Nə baş verməlidir ki, biz adlarımızın göylərdə yazılmasına sevinməyi öyrənək?
6. Bizim adlarımız nə vaxt və necə göylərdə yazıla bilər?
7. Siz 19-cu ayədə təsvir edilən hadisələrin nə vaxt və harada baş verdiyini eşitmisiniz?
   - Siz hansı vəziyyətdə bütün cəsarətinizi toplayıb ilanları və ya əqrəbləri tapdalaya bilərsiniz?
8. Nə üçün İsanın şagirdlərinə heç nə və ya heç kim zərər vura bilməz (19-cu ayə)?
   - Nədən qorxursunuz ki, o, sizə və sizin sevdiklərinizə zərər gətirə bilər?
   - Bu mətnə əsasən, biz nələrdən qorxmamalıyıq?
   - Biz nədən qorxmalıyıq?
9. İsanın şagirdlərinin çoxu şəhid olsa da, onlar hansı mənada düşmənin bütün qüvvətini məğlub etmiş oldular?
   - Nə üçün köhnə ilana (iblisə) çarmıxda İsanın dabanından vurmağa icazə verilmişdi?
10. Bu mətn bizə xidmətimiz barədə nə deyir?
    - Bu mətn “qüdrətli müjdəçilik” haqqında nə deyir? (Əgər bu termini bilmirsinizsə, sualdan ötə bilərsiniz.)

**XOŞ XƏBƏR:** Müqəddəs Kitab bizə deyir ki, o adların taleləri göylərdə olan həyat kitabında yazılmayıb: “Kimin adı həyat kitabına yazılmayıbsa, o, odlu gölə atıldı.” (Vəhy 20:15). İsa bunun bizim başımıza gəlməyini istəmədiyinə görə, Musa kimi dua etdi: “İndi yalvarıram, onların günahlarını bağışla. Əgər belə etməsən, adımı yazdığın kitabdan sil.” (Çıx. 32:32).

## 16. XEYİRXAH SAMARİYALI (Luka 10:25-37)

**Qısa məlumat:** Yəhudilər həmişə samariyalılara qanlarının qarışıq və yarıbütpərəst olduqlarına görə niftrət edirdilər. Yerusəlimdən 50 km şimalda yerləşən Gerizim dağında samariyalıların öz məbədləri vardı. Onlar yalnız Yaradılışdan Qanunun təkrarına (Musanın beş kitabı) qədər olan kitabları öz Müqəddəs kitabları kimi istifadə edirdilər. Bu kitabda olan yaralı adam, yəqin ki, yəhudidir. Kahin və levili, yəqin ki, öz dini öhdəliklərini yerinə yetirmək üçün məbədə gedirdilər. Onlar qana toxunsaydılar, günün sonuna qədər natəmiz sayılar və onlara məbədə girməyə icazə verilməzdi.

1. Yaralı adam saatlarla yol kənarında uzanıb qalarkən ağlından hansı fikirlər keçdiyini təsəvvür edin.
   - Səfərdən evə gəlməyən atanın arvadının və uşaqlarının özlərini necə hiss etdiyini təsəvvür edin.
2. Nə üçün bu iki dindar insan, kahin və levili, ölüm ayağında olan insana yardım etmədilər? Mümkün səbəblər haqqında düşünün.
   - Qanun bilicisi məsəldə kahin və levilinin davranışını necə qiymətləndirdi (25-27-ci ayələr)?
3. Kahin və levili öz Müqəddəs Kitablarından bildikləri məhəbbət haqqında əmri necə şərh etdilər? (27-ci ayəyə baxın.)
   - Sizcə, Allahı bütün qəlbinlə, varlığınla və gücünlə sevib, eyni zamanda əzab çəkən yaralı insanla həmin iki nəfər kimi rəftar etmək mümkündürmü? Öz düşüncələrinizlə bölüşün.
4. Samariyalının yaralıya yardım ETMƏMƏSi üçün bir çox səbəbləri vardı. Mümkün olan bütün səbəbləri düşünün.
   - Ədəbli insanın belə bir vəziyyətdə kömək məqsədilə verə biləcəyi minimum məbləğ nə qədər ola bilərdi?
   - Samariyalı yaralı adama hansı əlavə yardımı etdi?
5. İki gümüş pul iki günlük əmək haqqına bərabərdir ki, insanın iki ay mehmanxanada qalmağını təmin edə bilərdi. Bu, bizim pul məzənnəmizlə neçəyə başa gələrdi?
   - Samariyalı heç öz yerlisi belə olmayan yad adama yardım etmək məqsədilə nə üçün bu qədər pul verdi?
   - Siz bu samariyalının yad adama etdiyi hər şeyi kimə edərdiniz?
6. Sizcə, samariyalı məhəbbət haqqında əmrin birinci hissəsinə əməl etdimi (27-ci ayə)? Öz düşüncələrinizlə bölüşün.
7. Kahin və levilinin etinasızlıq göstərdiyi yaralı adam kimi, sizin də eynilə etinasızlıq etdiyiniz qonşunuz kimdir (37-ci ayə)?
   - Siz həmin qonşunuza yardım etmək məqsədilə hansı konkret addımları atardınız?
8. İsa və xeyirxah samariyalı arasındakı oxşarlıqlar nədir?
   - İsa Öz düşmənlərinə samariyalıdan artıq nəyi etdi?
   - Çox zaman qəlbən yaralı olan bizlər üçün İsa nə etdi?
9. İkinci Dünya müharibəsi dövründə avropalı məsihçilərin əksəriyyətinin təqib olunan yəhudilərə yardım etmək üçün heç nə etmədiklərini göstərən bəzi konkret nümunələri müzakirə edin. Öz ölkənizin/kilsənizin tarixindən quldarlıq, buraku-Monday və s. kimi nümunələr tapın.

## 17. YALNIZ BİR ŞEY LAZIMDIR (Luka 10:38-42)

**Qısa məlumat:** İsanın dövründə qadının mövqeyi bizim dövrümüzdən fərqli idi. Digər şeylərlə bərabər, qadınlar kişi ilə birlikdə Müqəddəs Kitabı oxuya bilməzdilər.

1. Siz yaxşı bir dostunuza baş çəkərkən ondan nə gözləyirsiniz?
   - İsa və şagirdləri bütün günü çöldə keçirmişdilər. Sizcə, onlar bu bacıların evində qalarkən onlardan nə gözləyirdilər?
2. İsa Marta və Məryəmgildə qonaq olarkən, onların necə reaksiya verdiyi barədə düşünün. Sizə hansını anlamaq daha asandır və niyə?
3. Biz 40-cı ayədə Martanın əsl problemini görürük. Bu, nə problem idi?
   - Martanı yalnız bacısına qarşı deyil, İsaya qarşı qıcıqlandıran nə idi?
   - Siz hansı vəziyyətdə İsaya: “Rəbb, görmürsən ki, ...?” demək istəmisiniz?
4. Məryəm şam yeməyi barədə nə düşünürdü?
   - Nə üçün İsa istərdi ki, Marta da işləməkdənsə, Onun sözlərini dinləsin?
5. Bəzi məsihçilər İsanın səsini dinləməkdənsə, ona xidmət etməyə can atırlar. Nə üçün?
   - Əgər bir insanı digərinin nə demək istədiyi maraqlandırmırsa, həmin iki insanın münasibətləri nəyi göstərir?
6. İsa “yalnız bir şey lazımdır” (42-ci ayə) deyəndə, nəyi nəzərdə tuturdu?
   - İsanın sözlərinin yaşayarkən və ölərkən eşitməli olduğunuz yeganə şey olduğu ilə razısınızmı?
7. Nə üçün İsa Onun sözlərini mütəmadi olaraq eşitməyinizi istəyir?
   - Biz İsanın sözlərini yalnız hərdənbir eşitsək, bizimlə nə baş verər?
   - Biz öz dövrümüzdə İsanın sözlərini harada və necə eşidə bilərik?
8. Biz nəyisə etməyi seçiriksə, deməli, nəyisə etmirik. Müqəddəs Kitabı oxumaq və məsihçi görüşlərinə getmək üçün siz hansı konkret şeyləri etməməlisiniz?
9. Sizcə, İsanı kim daha çox sevirdi, Marta, yoxsa Məryəm?
   - Bu ayələrdən hansını İsa bu gün şəxsən sizə deyir: 41-ci, yoxsa 42-ci ayəni?
10. Yaşayarkən və ölərkən lazım olan yeganə şey Allahın sözünü eşitməkdir. Nə üçün İsa çarmıxda asılarkən, onları eşidə bilməmişdi?

## 18. BALIQ, YOXSA İLAN? (Luka 11:5-13)

1. İsa bu mətndə olan kiçik məsəl vasitəsilə bizə dua haqqında öyrətmək istəyir. Siz özünüzün və məsəldə olan insanın vəziyyəti arasında hansı oxşarlıqları görürsünüz?
    - Siz hansı vəziyyətdə dualarınızda məsəldəki şəxs kimi tələb etmisiniz?
2. Evdə olan dost ondan xahiş edilən kimi etmək istəmirdi. Nə üçün İsa Allahı "dosta" oxşadır.
3. Birinci şəxsi istədiyini alana kimi təkid etməyə nə vadar etdi?
    - Allah cavab verənə qədər biz duaya davam etmək üçün haradan səbr ala bilərik?
4. Dua barədə öyrədərkən, İsa üç müxtəlif feldən istifadə edir: istəmək, axtarmaq, qapını döymək (9-10-cu ayələr). Bu fellər bizim dua həyatımızın hansı cəhətlərini təsvir edir?
    - Hal-hazırda sizin ürəkdən istədiyiniz, axtardığınız və qapını döydüyünüz şey nədir (Öz ürəyinizdə cavab verə bilərsiniz)?
5. İsa duanı uşağın atasından nə isə istəməsinə oxşadarkən, bizə dua haqqında nəyi öyrədir?
    - Hansı münasibətdə bizim Səmavi Atamız cismani atamıza bənzəyir?
6. Əgər sevən ata övladının özünə xeyirli bir şey istəmədiyini bilərsə, nə edər?
    - Biz istədiyimiz şeyin sevdiklərimiz və özümüz üçün xeyirli olub-olmadığını necə bilərik?
7. Sizin nə vaxtsa, əvvəl "ilan" olduğunu düşündüyünüz şeyin, daha sonra əslində "balıq" olduğunu anladığınız vaxt olubmu (və ya əksinə)? Bizə bu barədə danışın.
8. Sizin üçün ən vacib olan şey nədir: Allahın dualarınıza indi cavab verməsi, yoxsa onlara yeni yer və göydə cavab verməsi? Öz fikirlərinizlə bölüşün.
9. "Ah, Rəbbin əli qısa deyil ki, xilas edə bilməsin, qulağı kar deyil ki, eşidə bilməsin. Lakin şər əməlləriniz Allahınızla sizin aranızda ayrılıq saldı. Günahlarınıza görə Onun üzü sizdən döndü, O, səsinizi eşitmir." (Yeşaya 59:1-2). Növbəti suala cavab verərək, bu ayələr haqqında düşünün: Nə üçün Oğlu çarmıxda dua edərkən Allah Onun səsini eşitmədi?

## 19. VARLI AXMAQ (Luka 12:13-21)

1. Sizcə, niyə hətta ən yaxşı ailələrdə belə miras haqqında mübahisələr baş verir?
    - 13-cü ayədəki insan və müjdələrdə İsadan yardım istəyən digər insanlar arasındakı fərq nədir?
2. 13-cü ayədəki insanın problemi nə idi?
    - İsa bu insanın Ondan xahiş etdiyini etsəydi, nə baş verərdi?
3. İndi isə 16-20-ci ayələrdəki məsələ baxın. Həmin varlı insanın yaşadığı həyat barədə düşünün. O, xoşbəxt həyat sürdümü? Öz fikrinizlə bölüşün.
    - Siz öz övladlarınıza həyatlarında yalnız 17-ci ayədə təsvir olunan problemli bir həyat arzu edərdinizmi?
4. Nə üçün Allah heç vaxt Ona verdiyinə görə şükür etməyən insanın tarlalarına günəş və yağış göndərdi?
    - Bu varlı insanın dini (allahı) nə idi?
5. Biz bu varlı insanın insani münasibətlərindən nə öyrənirik?
    - Bu insanın ən böyük səhvi nə idi?
6. Bu məsəli varlı və yoxsul ölkələrə tətbiq edin. İsa Öz məsəli vasitəsilə bizim hansı günahlarımızı hədəfə almışdır?
    - Siz sahib olduğunuz pul və mülkdən necə istifadə etməlisiniz?
7. Niyə varlı insan çox gec olmadan ölməli olduğunu anladı?
    - Siz hansı vəziyyətlərdə öz ölümünüz və gələcək mühakimə barədə düşünürsünüz?
8. 21-ci ayənin mənası nədir? (Varlı insan göylərdə necə hədiyyə yığa bilərdi? Allahla münasibətdə varlı olmaq nə deməkdir?)
9. Varlı axmağı İsa ilə müqayisə edin – fərq nədədir?
    - Nə üçün Allah varlı adamdan həyatını tələb etdiyi kimi, İsadan da Onun həyatını tələb etdi (20-ci ayə)?
    - İsa yer üzündə olarkən qazandığından kim faydalandı (20-ci ayənin ikinci hissəsi)?

## 20. BİRİ SADİQ İDİ, DİGƏRİ SADİQ DEYİLDİ (Luka 12:35-48)

**Qısa məlumat**: "Xidmətçi" sözü, həmçinin, "qul" mənasını da verə bilər.

**35-40-cı ayələr**

1. Xidmətçi gecənin ən yaxşı hissəsini oyaq qalmaq üçün nə etməlidir?
    - Əgər ağası evə gəlməmişdən əvvəl xidmətçi yuxuya gedərsə, nə baş verər?
2. Sizcə, İsanın ikinci gəlişi üçün oyaq qalıb gözləmək asandırmı? Niyə hə, niyə yox?
    - Nə üçün İsanın gəlişi oğrunun evə girməsinə bənzədilir?
3. İsa bu ayələr vasitəsilə bizi nəyə qarşı oyaq olmağa xəbərdarlıq etmək istəyir (35-40)?
    - Siz, öz təcrübənizdə bu gün İsaya necə qapı aça bilərsiniz?

**41-46-cı ayələr**

4. Bu ayələrdə yaxşı və pis idarəçini müqayisə edin. Onlar arasındakı fərq nədir?
    - Bu idarəçiləri bir-birindən belə fərqli davranmağa nə vadar edir?
5. Bu iki idarəçinin öz ağaları ilə münasibətlərini müqayisə edin. Onların birinin digərindən fərqi nədir?
    - İsanın gəlişinə münasibətimiz bizim Allahın Padşahlığına xidmətimizə necə təsir edir?
6. İsanın yenidən qayıdacağı zamana qədər öz "idarəçilərinə" həvalə etdiyi şeylər nədir?
    - İsa sizə şəxsən hansı tapşırığı həvalə etmişdir?
7. Biz öz xidmətçi yoldaşlarını döyən, yeyib-içib sərxoş olan Cəmiyyət "idarəçilərini" harada tapa bilərik?
    - Bu "idarəçiləri" hansı cəzalar gözləyir?

**47-48-ci ayələr**

8. Məsihçi Cəmiyyətlərində Rəblərinin iradəsini bilməyən insanların olması kimin təqsiridir?Sonda Allahın xidmətçiləri hansı meyar ilə mühakimə ediləcəklər?

**Xülasə:**

9. İsa harada və nə vaxt qurşaqlanıb ki, bizə xidmət etsin və gəlib bizi gözləsin (37-ci ayənin ikinci hissəsi)?
10. Nə üçün İsa qeyri-sadiq qulun taleyini yaşamalı idi: O, sədaqətsizlərlə bir yerdə saxlanıldı və beləliklə, pisləndi (46-cı ayənin ikinci hissəsi)?

## 21. BARSIZ ƏNCİR AĞACI (Luka 13:6-9)

**Qısa məlumat**: Bu məsəl mənşə etibarilə İsrailə aiddir. İsa üç il ərzində bu xalq arasında böyük bəhrə əldə etmədən fəal işləmişdi. Buna baxmayaraq, məsəl bizim haqqımızda da danışır. Siz əncir ağacısınız, Allah sizin sahibinizdir və İsa həmin ağacın qayğısına qalan insandır. Tarixi məlumat üçün Matta 21:18-19-cu ayələrə baxın.

1. Üzüm bağında olan torpaq ən münbit torpaqdır. İsa öz məsəlində əncir ağacını üzümlərin arasına salmaqla İsrail haqqında nə demək istəyirdi?
    - Bəhrəsiz əncir ağacı onu əhatə edən üzümlərə nə ziyan vurdu?
2. Allah sizin həyatınızın son üç ili ərzində sizdən hansı meyvəni almaq istəyirdi? (Öz ürəyinizdə cavab verə bilərsiniz.)
    - Hansı səbəblər Allahın Padşahlığı üçün bəhrə gətirməyinizin qarşısını alır?
3. Bağbanın öz bəhrəsiz əncir ağacına qarşı hissləri nə idi?
    - Nə üçün İsa hətta heç bir bəhrə verməyən məsihçiləri belə sevir?
4. İsanın Öz Atasının qarşısında durub sizin üçün əlavə vaxt istədiyini təsəvvür edin. Bunu etməyə onu nə vadar edir?
5. Bağban ağacın dibini belləyib ona bəhrə verməyə söz verir. İsa son üç ildə Öz Səmavi Atasına bəhrə verəsiniz deyə, sizə imkan vermək üçün həyatınızda nə etmişdir?
    - Həyatımızda baş verən məyusluqlar və qəm-qüssələr bəhrə verməyimizə necə təsir edir?
6. Bu məsələ əsasən, heç bir bəhrə verməyən məsihçinin aqibəti nə olacaqdır?
7. İndi isə Matta 21:18-19-cu ayələrə çevirin (Rəhbər kəlamı oxuya bilər.). Bu hadisə İsanın həyatının son həftəsi dövründə baş vermişdi. İsanın qəflətən bəhrəsiz əncir ağacını lənətləməsinin müxtəlif səbəbləri haqqında düşünün.
    - Bu iki ayənin İsanın ölümü ilə nə əlaqəsi vardı.

**XOŞ XƏBƏR:** Bəhrəsiz əncir ağacını lənətləyəndən sonra İsa onun yerini tutdu – İsrailin, sənin və mənim. “Məsih bizim uğrumuzda lənətlənərək bizi Qanunun lənətindən satın aldı. Çünki yazılıb: “ağacdan asılan hər kəsə lənət olsun!” (Qal. 3:13).

## 22. BELİ BÜKÜLMÜŞ QADIN (Luka 13:10-17)

**Qısa məlumat**: Sinaqoq insanların şənbə günü yığışıb Allahın Kəlamını dinlədikləri yer idi. O dövrdə, qadınların dini məsələlərdə söz demək hüququ yox idi; onlar ya eyvanda, ya da arxa sırada oturar və ya dayanardılar. Biz həmin qadının beli ilə nə baş verdiyini bilmirik, amma bu, yəqin ki, bel bükülməyə oxşar bir şey idi.

1. Bu qadının 18 il boyunca gündəlik əlillik həyatını təsəvvür edin.
   - Sizcə, digər insanlar bu beli bükülmüş qadınla necə rəftar edirdilər (14-cü ayə)?
2. Əgər siz yeniyetmə dövrünüzdə əlil olsaydınız, sizin üçün ən çətin şey nə olardı?
   - Əgər siz gənc ikən əlil olsaydınız, bunun olmasına imkan verən Allah haqqında nə düşünərdiniz?
3. İsa cinə tutulmuşu azad edəndə, həmişə cinə birbaşa müraciət edərdi. O, burada eyni hərəkəti etmir ki, bu da həmin qadının cinə tutulmadığını göstərir. İsa qadını buxovlayanın şeytan olduğunu deyəndə nəyi nəzərdə tuturdu (16-cı ayə)?
   - Biz insanları nə kimi şeylər buxovlaya bilər ki, biz həyatı tam dolğun şəkildə yaşaya bilməyək?
4. Qadın sinaqoqa şəfa tapmaq üçün gəlməmişdi. Bəs niyə gəlmişdi?
   - Allahın sözünü həftədə bir dəfə eşitməyin bu qadın üçün nə mənası vardı?
5. Nə üçün bu qadın İsadan yardım istəmədi? Müxtəlif səbəblərini düşünün.
   - Sizcə, İsa qadını bütün insanların qarşısına çıxmağa çağıranda qadın nə hiss etdi?
   - İsanın istədiyini etməyə onu nə vadar etdi?
6. Bu mətnə əsasən, bu və ya digər tərzdə şeytan tərəfindən buxovlanan insana nə kömək edir? (Mətnə əsaslanın!)
7. İsa qadını “İbrahimin qızı” adlandıraraq nə demək istəyirdi? Mümkün variantları düşünün. (“İbrahim” haqqında 28-ci dərsdə olan qeydi oxuyun.)
8. İsanın həmin qadına münasibəti sinaqoq başçısının ona münasibətindən nə ilə fərqlənirdi?
   - Sinaqoqun başçısı Allaha inandığını düşünürdü. Bəs onun imanında nə çatışmırdı?
   - Sinaqoq başçısını nə buxovlayırdı?

**XOŞ XƏBƏR:** Şeytan nəticədə İsanın Özünü buxovlayardı – çarmıxda mıxlarla. Buna görə də O, indi şeytanın hakimiyyətindən qurtulmaq istəyənləri azad edə bilir.

## 23. DAR QAPI (Luka 13:22-30)

1. Sizcə, nə üçün kimsə 23-cü ayədə olan suala cavab bilmək istəyər?
    - Nə üçün İsa bu suala, sadəcə olaraq, bəli və ya xeyr deyə cavab vermədi?
2. Hansı cəhətdən göylərə aparan qapı dardır?
    - Hansı insanlar üçün Allahın padşahlığının qapısı xüsusilə dardır?
3. İnsanlar hansı müxtəlif yollarla Allahın padşahlığına dar qapıdan daxil olmağa cəhd edirlər (24-cü ayə)?
4. Bununla əlaqədar İsa Allahın Padşahlığında keçirilən qonaqlıq haqqında kiçik məsəl danışır (25-27-ci ayələr). İsa bu məsəl vasitəsilə Öz dinləyicilərinə nə demək istəyir?
5. Nə üçün hələ vaxt var ikən məsəldə olan insanlar dar qapıdan keçmədilər?
    - Bu məsəl 23-cü ayədə verilən sualla necə əlaqəlidir?
6. İsa Onunla bərabər yeyib-içən və hətta Onun təlimlərini eşidən insanların kim olduqlarını bilmədiyini deyərkən nəyi nəzərdə tuturdu?
    - İsanın bizi son gündə tanıyacağına necə əmin ola bilərik?
7. 28-ci ayədə adları çəkilən bütün ataların zəiflikləri və günahları vardı. Onlara Allahın Padşahlığına dar qapıdan keçməyə nə imkan verdi? (Atalar haqqında xatırladığınıza əsasən müzakirə edin – bu şeyləri axtarmağa başlamayın.)
    - Allahın Padşahlığında qonaqlığa gələcək digər insanlar kimlərdir (29-cu ayə)?
8. (Rəhbər Yəhya 10:9-cu ayəni oxuyun. Göylərə aparan qapıya aid İsanın təlimi bu iki yerdə bir-birindən nə ilə fərqlənir?
    - Nə üçün qapılardan biri dardır, o biri isə hamıya açıqdır?

**XOŞ XƏBƏR:** Dəvənin iynə gözündən keçməsi kimi, günahlı adamın da qanun darvazası vasitəsilə xilas olması qeyri-mümkündür (Matta 19:24). Yalnız İsa qanun darvazasından keçə bilər. Amma Müjdə qapısı hamı üçün açıqdır, çünki bu, günahların bağışlandığı darvazadır.

## 24. BÖYÜK QONAQLIQ (Luka 14:12-24)

**Qısa məlumat:** Dəvətnamələri birinci alan şəxslər ilk növbədə yəhudilər idi. İndi isə, 16-20-ci ayələri vəftiz və Allahın Kəlamı vasitəsilə Allah tərəfindən çağırılanların hamısına aid etmək olar.

1. Sonuncu dəfə qonaqlıq verdiyiniz vaxtı xatırlayın. Kimsə sizə 12-14-cü ayələrə əsasən hərəkət etməyi söyləsəydi, siz nə deyərdiniz?
    - Nə üçün İsa bizdən qonaqlıqlarımıza yoxsulları və xəstələri dəvət etməyimizi xahiş edir?
2. 18-20-ci ayələrə baxın. Bu üç insanın qonaqlıq dəvətini qəbul etməməklərinin səbəbi nə idi?
    - Nə üçün biz mal-mülkümüzü (18-ci ayə), işimizi (19-cu ayə) və sevgi həyatımızı (20-ci ayə) Allahın Padşahlığından üstün hesab edirik? Bu üç bəhanədən hansı sizin həyatınıza toxunur? (Siz öz ürəyinizdə cavab verə bilərsiniz.)
3. Dəvət olunanlar qonaqlıq verənə nə dərəcədə yüksək ehtiram göstərdilər?
    - Bunun şərhlərindən biri odur ki, dəvət olunanlar yaxın gələcəkdə əvəzini verə bilməyəcəklərinə görə, dəvəti qəbul etmədilər (12-ci ayənin ikinci hissəsi). Əgər bu, doğrudursa, onda bu dəvəti qəbul etməyənlər haqqında nəyi açıqlayır?
    - Dəvəti qəbul etməyənlərin ən böyük səhvi nə idi?
4. Bu məsəldə olan qonaqlıq göylərə istinad edir. Nə üçün insanların əksəriyyəti ora getməyə maraq göstərmirlər?
5. İlk dəvət olunanlar və nəticədə qonaqlığa gələnlər arasındakı ən böyük fərqlər nədədir? - Birincilərin dəvəti qəbul etmədiyinə baxmayaraq, niyə sonradan dəvət olunanlar dəvəti qəbul etdilər?
6. Bizim dövrümüzdə göylərə dəvəti sevinclə qəbul edən "yoxsullar, əlillər, korlar və topallar" kimlərdir (21-ci ayə)?
    - Nə üçün bu insanlar onun əvəzini verməyin qayğısını çəkmirdilər?
7. 23-cü ayə kimə istinad edir?
    - Bu ayə bizə müjdəçilik haqqında nəyi öyrədir (müjdəni bəyan etmək)?
8. Siz bu iki qrupdan hansına aidsiniz? (Öz ürəyinizdə cavab verə bilərsiniz.)
    - Dəvəti qəbul etməyənlər qrupundan, dəvəti qəbul edənlər qrupuna keçmək üçün Allah sizin həyatınızda nə edib?
9. "Buyurun, indi hər şey hazırdır" (17-ci ayə). İsa bu qonaqlığı təklif edə bilmək üçün nə ödəməli idi?
    - İsa sizlərə belə deyir: "Buyurun, indi hər şey hazırdır!" Siz nə cavab verəcəksiniz?

**XOŞ XƏBƏR:** İsa göylərdə olan qonaqlığı təmin etmək üçün yoxsul, əlil, kor və topal" olmalı idi. Ona görə də, dəvətnaməni indi hamı əvəzsiz əldə edə bilər.

## 25. İTMİŞ QOYUN (Luka 15:1-7)

1. Vergiyığanlar və digər günahkarların Allahın səsini eşitmək üçün yaxınlaşmağının mümkün səbəbləri barədə düşünün (1-ci ayə).
    - Nə üçün biz bəzən Allahın səsini eşitmək üçün yaxınlaşırıq?
2. İtmiş qoyun tapılması üçün özünə necə kömək edə bilər – və nə edə bilməz?
    - İsa onu tapsın deyə, günahkar nə edə bilər – nə etməyə bilər?
    - Narahat olduğunuz insanlara aid bu məsəldə hansı təskinlik vardır?
3. İsa qoyunun tapılmasını tövbə ilə müqayisə edir (7-ci ayə). Beləliklə, bu məsələ əsasən tövbə nədir? (Mətnə əsaslanın!)
4. Sizcə, biz "tövbəyə ehtiyacı olmayan saleh insanları" (7-ci ayə) haradan tapırıq?
    - Yeşaya kitabında fariseylərin dəfələrlə oxuduğu bir ayə vardır: "Hamımız qoyun kimi yolu azmışdıq, hər bizimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu." (Yeşaya 53:6). İndi yenidən cavab verək: 99 insan kimdir?
5. Sizcə, fariseylər hansı günahlarına görə tövbə etməli idilər (2-ci ayə)?
    - Nə üçün fariseylər itmiş olduqlarını anlamırdılar?
    - Siz bu qruplardan hansına aid olduğunuzu düşünürsünüz: itmiş, yoxsa tapılmış?
6. İsanın məsəllərində şadyanalıq, adətən, göylərdə olan əbədi həyata aid edilir. Nə üçün şadyanalıq 99 qoyuna görə deyil, yalnız bir itmiş qoyuna görə idi (6-cı ayə)?
7. Təcrübədə heç kimin iki ayağı üstündə göylərə gedə bilməyəcəyi nəyi ifadə edir (5-ci ayə)?
8. Biz bu günlərdə günahkarları xoş qəbul edən və hətta onlarla yemək yeyən İsanı harada görə bilərik (2-ci ayə)?

**XOŞ XƏBƏR:** Vəftizçi Yəhya İsanı quzu ilə müqayisə etdi. O, dünyanın günahlarını götürən Allahın Quzusu olur (Yəhya 1:29). İsa Quzu kimi çöllükdən xilas edilməyib - əksinə, O, orada öldürülüb. O, evə aparılmayıb, amma bizim bütün günahlarımız daşınılmaq üçün Ona verilib.

## 26. İTMİŞ OĞUL (Luka 15:11-24)

**Qısa məlumat**: Yaxın Şərqdə, adətən, təpədə tək ev olmur, adətən, sıx məskunlaşmış kənd yollarında olur. Geniş mənzərəni seyr edə biləcəyin yeganə yer evin damıdır. Eləcə də, Yaxın Şərqdə hörmətli insanın qaçmadığını da nəzərə alın.

1. Yaxşı evi və atası olmasına baxmayaraq, nə üçün kiçik oğul evdə yaşadığı həyatla qane olmadı?
   - Əgər siz atanın yerinə olsaydınız, oğlunuzun xahişinə necə cavab verərdiniz?
2. Nə üçün Allah Onu tərk etmək istəyən insanı saxlamağa çalışmır?
3. Kiçik oğulun xaricdə olarkən sürdüyü həyat haqqında nə fikirləşirsiniz – bu, xoşbəxt həyat idi, yoxsa yox?
   - Nə üçün bizim dövrümüzdə bu qədər çox insan - çoxlu pulla və sabahkı günü düşünmədən xaricə səfər etmək - bu cür həyat sürmək istəyir?
4. Donuz yəhudilər üçün natəmiz heyvan idi. Sizcə, 14-16-cı ayələrdə təsvir olunmuş vəziyyətdə kiçik oğul özünü necə hiss edirdi?
   - Kiçik oğulun bu vəziyyətdə hansı seçimləri vardı?
   - Allahla hazırkı münasibətlərinizə gəldikdə, sizin hansı seçimləriniz vardır?
5. 18-19-cu ayələr kiçik oğulun günahının etirafından ibarətdir. Onun göylərə qarşı günahı nə idi? O, nə üçün ilk növbədə bu günahları etiraf etdi?
   - Onun atasına qarşı günahı nə idi?
6. Biz hansı vəziyyətlərdə itmiş oğul kimi düşünməyə meyil edirik: “Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm” (19-cu ayə)?
   - İnsan nə vaxt Allahın övladı adlandırılmağa layiqdir?
7. Nə üçün oğul planlaşdırdığı bütün sözləri atasına demədi (18-19-cu və 21-ci ayələr)?
8. Ata bütün bu illər boyu nə edirdi (20-ci ayə)?
   - Sizcə, ata oğlunu nə vaxt bağışladı?
   - Oğul atasının məhəbbətinə nə vaxt inanmağa başladı?
9. İsa Özü bu məsəldə haradadır?

**XOŞ XƏBƏR:** İtmiş oğul məsəli bizə ziddiyyət vasitəsilə İsa haqqında nəyi öyrətdi? İsa da evini və Atasını tərk etdi, lakin tamamilə fərqli səbəblərdən: Atasının iradəsini yerinə yetirmək üçün. Amma yenə də, həyatının sonunda evə qayıdanda, itmiş oğul kimi səmimi qəbul edilmədi. Əslində, əksinə oldu: demək olar ki, qapı Onun üzünə çırpıldı. Niyə?

## 27. DİGƏR İTMİŞ OĞUL (Luka 15:25-32)

1. Nə üçün böyük oğul kiçiyi kimi evi tərk etmədi?
    - Bu insan hər şeydən çox nəyi istəyirdi?
    - Nə üçün böyük oğulun həyatında, demək olar ki, xoşbəxtlik yox idi?
2. Nə üçün böyük qardaş özünü varis deyil, qul sayırdı (12-ci ayənin ikinci hissəsi, 29 və 31-ci ayələr)?
    - Nə üçün böyük qardaş atasının sözlərinə etibar etmədi?
3. Hansı vəziyyətdə siz Allahın Padşahlığı üçün əziyyətinizin əvəzində, heç “bir oğlağa” belə layiq görülmədiyinizi hiss etmisiniz (29-cu ayə)?
4. Böyük oğul qonaqlığa gəlməkdən imtina edərək atasını bütün kənddə hörmətdən saldı. Sizcə, onun öz atasını sevməməyinin səbəbi nə idi?
    - Bu məsəlin əsasında müzakirə edin: Əgər biz Allahı sevmiriksə, bunun səbəbi nə ola bilər?
5. Böyük oğul atasının bütün əmrlərini yerinə yetirdiyini düşünərkən səhv edirdi (29-cu ayə). Əslində, atanın oğluna dair iradəsi nə idi?
    - Hansı yollarla hətta həsr olunmuş imanlılar xəbərləri olmadan belə, Allahın iradəsinə qarşı çıxa bilərlər?
6. İsanın məsəllərində şadyanalıqlar, adətən, göylərə aid olur. Onun məsəlinə əsasən, kim göylərə gedə bilir, kim isə gedə bilmir?
7. Niyə, sizcə, İsa, sanki bu məsəlin ortasında sözünü kəsir (32-ci ayə)?
8. Qardaşların səhəri gün tarlaya işləməyə gedərkən nə baş verdiyini təsəvvür edin – onların hissləri necə fərqlənirdi?
9. İsa həmin məsəldə harada idi?

**XOŞ XƏBƏR:** İsanın böyük oğul kimi miras almağa hüququ vardı, lakin O, Öz hüquqlarını qurban verdi. ...Lakin Özünü heç etdi və qul surətinə salıb... ölümə qədər – çarmıx üzərində ölümə qədər itaət göstərdi.” (Filip. 2:6-8). Bu yolla İsa hətta böyük qardaş kimi qul vəziyyətində buxovlanmış insanları da xilas etdi. Onlara hədiyyə olaraq verilmiş miraslarını qəbul etdikdə - İsa onları azad edəcək.

## 28. VARLI ADAM VƏ LAZAR (Luka 16:19-31)

**Qısa məlumat:** İbrahim həm yəhudilərin atası, həm də məsihçilər üçün iman atası idi. O, çox varlı bir adam idi. "Lazar" adının mənası "Allahın yardım etdiyi insan" və ya sadəcə olaraq, "Allah kömək edir" deməkdir. Bu, İsanın Öz məsəllərində qəhrəmana ad verdiyi yeganə yerdir. "Musa və Peyğəmbərlər" "Əhdi-Ətiq", İsanın dövründə olan Müqəddəs kitabın ixtisarlarıdır.

1. Varlı adamın həyatda zövq alacağı yaxşı şeylər nələr idi? Mümkün qədər çox ehtimalları düşünün.
    - Lazar yer üzərində yaşayarkən onun həyatında baş verən hər hansı bir yaxşı şey haqqında düşünə bilərsinizmi?
2. Nə üçün varlı adam hər dəfə evindən çıxanda yoxsul Lazarı görsə də, ona yardım etmədi?
    - Əgər kimsə sizin övladınıza varlı insanın Lazara davrandığı kimi davransaydı, sizcə, ona hansı cəza verilməlidir?
    - Bu gün sizin Lazar qismində yardım edə biləcəyiniz insanlar kimdir? (Unutmayın ki, bəzi insanlar qidadan başqa şeylərə görə də acdırlar.)
3. Nəyə görə kimsə öz övladına "Allah yardım edir" adını versin? Bunun müxtəlif səbəblərini düşünün.
    - İsanın öz məsəlində adını yoxsul insana vermək istəməsinin səbəbi nə olar bilərdi?
    - Allah Lazara yardım etdi?
4. Böyük ehtimalla, Lazar sağlamlığı və gündəlik çörəyi üçün Allaha dua edirdi. O, dualarına dilədiyi cavabı verməyən Allaha iman etməyə necə davam edə bilərdi?
    - Əgər Lazar Allaha iman etməsəydi, həyatı necə olardı?
5. Lazar öləndə, yəqin ki, heç bir yas mərasimi keçirilmədən o, məzara atılmışdı. Mətndə deyilir ki, "Varlı adam da öldü və dəfn edildi." (22-ci ayə). Həmin yas mərasimində, sizcə, hansı sözlər deyilmişdi?
6. Nə üçün varlı insan cəhənnəmə atılmışdı?
    - Nə üçün Lazara göylərə getməyə icazə verilmişdi?
7. Varlı adam və İbrahim 27-31-ci ayələrdə insanların Allaha necə döndüklərini və xilas olduqlarını müzakirə edirlər. Varlı adam bu barədə nə düşünür?
    - İbrahimin sözlərinə əsasən, nə üçün möcüzələr iman gətirmir?
8. Nə üçün heç kim Müqəddəs Kitab olmadan xilas ola bilmir (29-31-ci ayələr)?
9. Lazarın həyatı və ölümü İsanın həyatı və ölümü ilə necə oxşardır? (Onların əzablarını, imanlarını və s. nəzərə alsaq.).
    - İsa Öz dirilməsi barədə nəyi əvvəlcədən deyirdi (31-ci ayə)?
10. İsa bu məsəl vasitəsilə "xoş güzəran müjdəsi" haqqında nəyi öyrədir? (Əgər siz həmin termini bilmirsinizsə, suala cavab vermədən ötə bilərsiniz.).

## 29. 10 NƏFƏR ŞƏFA ALDI, BİR NƏFƏR XİLAS OLDU (Luka 17:11-19)

**Qısa məlumat**: İsanın dövründə cüzamlı adamlar başqalarından təcrid olunmuş halda yaşamalı idilər. Əgər kimsə şəfa aldığını düşünürdüsə, o, özünü kahinlərə göstərməli idi (Lev. 13 və Lev. 14). Bütün Əhdi-Ətiqdə yalnız iki və ya üç dəfə bu barədə yazılıb. Rəhbər ensiklopediyada cüzam xəstəliyi haqqında yazılanları oxuya bilər. Yəhudilər, samariyalılara olduğu kimi, cüzamlılara da yad və yarıbütpərəst olduqlarına görə nifrət edirdilər.

1. Həmin 10 nəfərin cüzama tutulduqlarını anladıqları gün barədə düşünün. Sizcə, özlərinin və ailələrinin gələcəkləri haqqında onların ağıllarından nələr keçdi?
    - (İsanın dövründə cüzama tutulmaq ilə indiki dövrdə QİÇS-ə tutulmaq arasında nə kimi oxşarlıq var?)
2. Sizcə, bu çox xəstə və təcrid olunmuş insanların həyatlarında xoş olan bir şey var idimi?
3. Bu cüzamlılar İsanın onlar üçün nə etməsini gözləyirdilər – 13-cü ayədə onların duasına baxın?
4. Kahinlərin yaşadıqları şəhərlərdən Samariya və Qalileya arasındakı sərhəd təxminən 50-60 km məsafəni əhatə edirdi. İsanın həmin adamlara dərhal şəfa verməyib onları uzağa göndərməsinin müxtəlif səbəblərini düşünün.
    - Nə üçün bu insanlar hətta hələ şəfa tapmasalar belə, bu çətin səfərə getdilər?
    - Bu insanlar səfərə çıxarkən onları imanlı, yoxsa imansız adlandırardınız?
5. Yəhudi kahinlər samariyalılar ilə heç bir əlaqədə olmaq istəmirdilər. Nə üçün bir samariyalı yəhudilərlə birlikdə bu səfərə çıxdı?
6. Doqquz nəfərin qayıdıb İsaya minnətdarlıq etməməyinin mümkün səbəblərini düşünün.
    - Nə üçün samariyalı qayıdıb İsaya təşəkkür etdi?
7. Nə üçün İsa Ona təşəkkür etmək üçün qayıtmayan doqquz nəfərə görə məyus oldu?
    - Sizcə, həmin doqquz nəfərin etdiyi kimi, siz də İsanı nə vaxtsa belə davranışla məyus etmisinizmi?
8. “Sənin imanın sənə şəfa verdi” ifadəsi, həmçinin, “Sənin imanın səni xilas etdi” kimi tərcümə edilə bilərdi. Nə üçün İsa bu sözləri samariyalıya demək istədi?
9. Şəfa axtaran iman ilə İsanın Özünə iman arasındakı fərq, sizcə, nədədir?
    - Nə üçün “şəfa imanı” məhz ona malik olanları xilas etmir?
10. Həmin doqquz yəhudi sonralar düşünərkən təcrid olunduqları və utanclıq illəri onlar üçün nəyi ifadə edirdi?
    - Samariyalının illər boyu sürən xəstəliyi onun üçün nə demək idi?

**XOŞ XƏBƏR:** İsa çarmıxda cüzamlıların yaşadıqları təcrid olunmanı eynilə yaşamalı idi: “Adamlar ona həqarətlə baxıb rədd etdi. O, dərdli, xəstəlikləri görən insan idi...Əslində, xəstəliklərimizi o çəkdi, dərdlərimizi öz üzərinə götürdü” (Yeşaya 53:3-4). Bu, İsanın həmin möcüzəyə görə ödəməli olduğu qiymət idi.

## 30. İNADKAR DUL QADIN (Luka 18:1-8)

**Qısa məlumat**: İsanın dövründə qadınlar nə kimisə məhkəməyə verə bilər, nə də məhkəmədə şahid ola bilərdilər. Onların kişi qohumları bu məsələləri onların yerinə həll etməli idilər. Həmin dul qadının yəqin ki, belə bir köməyi yox idi. Yəqin ki, kişi qohumları onun övladlarının mirasını əlindən almağa çalışırmışlar.

1. Allahdan gecə və gündüz yalvarıb kömək dilədiyiniz vaxtı xatırlayın. Belə vaxtlarda duanı dayandırmaq nə üçün belə asan olur (1 və 7-ci ayələr)?
2. Həmin dul qadının həyatını təsəvvür edin. O, övladlarını tək böyüdərkən hansı çətinliklərdən keçmişdi?
3. Bəzi insanları bu məsəldə olan hakimə nə oxşadır: onlar nə Allahdan qorxur, nə də insana hörmət edir (2-ci ayə)?
    - Nə üçün İsa Allahı ədalətsiz hakim ilə müqayisə etdi?
    - Siz nə vaxtsa Allahın ədalətsiz hakim olduğunu hiss etmisinizmi? Əgər hiss etmisinizsə, niyə?
4. Dul qadın əmin idi ki, ədalətsiz hakim ona əvvəl-axır yardım edəcək. Niyə?
    - Biz Allahın əvvəl-axır sevdiklərimizə və bizə kömək edəcəyindən necə əmin ola bilərik?
5. Hər dəfə dul qadın ağlayaraq kömək diləyəndə onun ürəyində nələr baş verirdi?
    - Biz Allahın susmasına baxmayaraq, uzun müddət dua edəndə ürəklərimizdə nə baş verir?
6. 7-8-ci ayələrdə İsanın sözləri hansı mənanı daşıyır?
7. İsa bir dəfə hakim qarşısına çıxdı. Bu iki vəziyyət – İsanın və dul qadının vəziyyəti - arasındakı oxşar və fərqli cəhətlər nə idi? (Kəlamda bu hissəni axtarmayın, yadınızda qalanlardan müzakirə edin.)
    - İsanın duası bu qadının duasından nə ilə fərqlənirdi (3-cü ayə)?
    - İsaya verilən hökm dul qadına verilən hökmdən nə ilə fərqlənirdi?
    - Allahın İsa haqqında çıxardığı hökm ədalətli idi, yoxsa ədalətsiz?
8. 8-ci ayənin ikinci hissəsinin məsəl ilə nə əlaqəsi vardır?

## 31. KİM SALEHDİR? (Luka 18:9-14)

**Qısa məlumat**: İsanın məbəddə farisey və vergiyığan haqqında verdiyi təlim bəraət qazandırmaq Onun haqqında verdiyi birinci təlim idi. Bu təlim suallara cavab verir: Biz Allah qarşısında saleh sayılıb Göylərə necə gedə bilərik? Nəzərə alın ki, İsanın dövründə farisey sözü insanların ağlında özündən razı ikiüzlü deyil, Allaha həqiqətən iman edən və Ondan qorxan adam surəti yaradırdı. Fariseylər də yoxsulların tərəfində idilər və buna görə də, insanlar arasında məşhur idilər. Vergiyığanlar isə, vətən xaini idilər və yoxsulları istismar edirdilər.

1. Bu insanların hər ikisinin Allaha iman etdiklərini nə göstərir?
    - Yəhudilər üçün məbəd satın alınma və Allahla görüşə bildikləri yer idi. Müzakirə edin: bizim mətnimizdə haqqında danışılan farisey hansı məqsədlə məbədə getmişdi?
    - Bu vergiyığan hansı məqsədlə məbədə gəlmişdi?
2. Farisey nəyə görə minnətdar idi – onun duasına baxın?
    - Nə üçün farisey Allahın onun üçün etdiyi heç bir şeyə istinad etmədi?
    - Fariseyin bəraət qazandırma təlimi nə idi (Yuxarıda verilən qeydi oxuyun.)
3. Siz nə vaxtsa, bu məsəldə olan vergiyığan kimi dua etmisinizmi? (Öz ürəyinizdə cavab verə bilərsiniz.)
    - Vergiyığanın duasında olan yunan feli aşağıdakı mənanı ifadə edə bilər: “Allah, bu məbəddə Sənə təqdim olunan qurbana görə mənə lütf et.”
4. Biz hansı cəhətdən bu məsəldə olan fariseyə bənzəyə bilərik?
    - Fariseyin Allaha və öz qonşusuna qarşı günahı nə idi?
    - Nə üçün farisey günahlarından xəbərsiz idi?
5. Fariseyin imanı vergiyığanın imanından güclü idi. Nə üçün çox vaxt yalançı iman həqiqi imandan güclü olur?
6. Onların hər ikisi məbədi tərk edərkən hansının saleh olduğunu kim bilirdi? (Mətnə əsasən cavab verin!)
    - Nə üçün İsa Öz məsəlini “Bundan sonra vergiyığan dələduzluq edərək aldığı pulları insanlara qaytardı və hörmətli bir insan oldu” deyərək bitirmədi?
7. Vergiyığan, yəqin ki, bir çox insanın həyatını dağıtmışdı. Bəs günahlarına görə Allahdan almalı olduğu cəza necə oldu?
8. Bəraət qazandırmada haqq qazananın rolu nədir?
    - Bəraət qazandırmada Allah hansı rolu oynayır?
    - Bəraət qazandırmada qurban hansı rolu oynayır?

**XOŞ XƏBƏR:** Məbəddə təqdim olunan qurban İsanın ölümünün timsalında verilib. Əslində, vergiyığan İsanın qurbanı əsasında bağışlanma dilədi. Onun günahları İsanın ayağına yazıldı, İsanın salehliyi isə onun ayağına yazıldı.

## 32. AĞACA ÇIXMIŞ VERGİYIĞAN (Luka 19:1-10)

**Qısa məlumat**: İsanın dövründə vergiyığanlar öz vicdansızlıqlarına görə ad çıxarmışdılar. Onlar vergini artıq alıb, onlara düşən paydan daha artıq özləri üçün saxlayırdılar. Adətən, biz İsa haqqında düşünəndə Onu əzilmişlərin və yoxsulların tərəfində görürük, amma burada isə biz Onu zülm edənin tərəfində görürük. Yəhudi mədəniyyətində kiminsə evinə nahar yeməyinə getmək dostluğun əlaməti idi.

1. Vergiyığanların rəisi Zakkayın gündəlik həyatı Yerihoda necə keçə bilərdi? Onun həyatının mənfi və müsbət cəhətləri hansılar idi?
2. Zakkay öz işinə və həyat tərzinə necə bəraət qazandıra bilərdi?
    - Sizcə, Zakkay nə üçün bu qədər çox pul istəyirdi?
3. Sizcə, Zakkay niyə İsanı görmək istəyirdi – mümkün olan səbəbləri bölüşün?
    - Sizcə, vergiyığanların rəisi hamının onu ağacda görməsini istəyərdimi? Öz fikrinizi bölüşün.
4. Kiminsə haqsızcasına sizin pulunuzu əlinizdən aldığı vaxtı düşünün. Əgər siz Zakkayın qurbanlarından biri olsaydınız, 5-ci ayədə İsanın davranışı haqqında hansı fikrə gələrdiniz?
5. İsanın Zakkay ilə ilk görüşündə təəccüblü olan nədir – unutmayın ki, bu, İsanın Yerihoya ilk və son səfəri idi?
6. Sizcə, Zakkay nə vaxtdan İsaya inanmağa başlamışdı (5-8-ci ayələr)? Müxtəlif variantları müzakirə edin.
7. Əgər İsa: “Dərhal yerə düş və mal-mülkünün yarısını yoxsullara payla. Onda mən sənin evinə gələcəyəm” desəydi, Zakkay nə edərdi?Əgər İsa sizə: “Əvvəlcə vurduğun bütün ziyanın əvəzini ödə, sonra mən səninlə dost olaram” desəydi, necə reaksiya verərdiniz?
8. Təsəvvür edin ki, bir gündə bütün mal-mülkünüzün yarısını paylasanız, necə olar? Sizi belə bir şeyi etməyə nə vadar edə bilər?
    - Zakkay itirdiyi pulun əvəzinə nə aldı?
9. Zakkay və Yerihonun sakinləri arasındakı ən böyük fərq nədir? (7-ci ayəyə baxın.)
    - İsa şəhərin ən pis adamının evinə niyə getmək istəyir?
10. İsa bu gün sizə belə deyir: “Mən bu gün sənin evində qalmalıyam.” O, sizin evinizə gedib, sizdə qalmaq istəyir. Ona nə cavab verirsiniz?
11. Bu mətndə kim kimi axtarır: Zakkay İsanı axtarır, yoxsa İsa Zakkayı axtarır (3, 9, 10-cu ayələr)?

**XOŞ XƏBƏR**: Yerusəlimə çarmıxa çəkilməyə gedən yolda, İsa Yerihodan keçib getdi. Yəqin ki, O, bunu Zakkay üçün etdi. İsa Zakkayın günahlarını bağışlayanda bilirdi ki, Allahın onlara verdiyi cəzanı o daşımalıdır. Zakkayın da, bizim də günahlarımız əvəzsiz olaraq bağışlandı – amma bu, İsanın həyatı bahasına başa gəldi.

## 33. SON MƏSƏL (Luka 20:9-19)

**Qısa məlumat**: Üzüm bağı ilk əvvəl yəhudilərə, xüsusilə də onların rəhbərlərinə aid edilirdi, lakin indi isə, son zamanlarda olan məsihçi cəmiyyətlərinə də aid edilə bilər.

1. İcarəyə götürənlər, üzüm bağının sahibinin necə adam olduğunu düşünürdülər?
    - İcarəyə götürənlərin ağaya qarşı səhvləri nə idi?
    - İsa bu məsəl vasitəsilə Allahla insan arasındakı hansı münasibəti təsvir etmək istəyir?
2. Nə üçün birinci qul evə əliboş qayıdanda, ağası məsələyə qarışmadı (10-cu ayə)?
    - Sizcə, nə üçün qullara qarşı münasibət günü-gündən daha da pisləşdi (10-12-ci ayələr)?
    - Nə üçün Allah qullarına qarşı pis rəftarın və təqibin qarşısını almadı?
3. Allah bizim hansı bəhrələri gətirməyimizi istəyir?
    - Allahın məsihçilər cəmiyyətindən istədiyi bəhrə nədir?
    - Nə üçün bəzən əməyimizin bəhrəsini Allaha vermək belə çətin olur?
4. Sizcə, ağa hansı niyyətə öz sevimli oğlunu üzüm bağına göndərdi?
    - Siz hansı səbəbə görə öz övladınızın həyatını riskə ataraq belə bir yerə göndərərdiniz?
    - Nəyə görə bu dünya Allah üçün Öz Oğlunu göndərəcəyi qədər vacibdir?
5. İcarəyə götürənlər bağ sahibinin oğlunu öldürmək üçün cəsarəti haradan aldılar?
    - İnsanlar Allahın Oğlunu öldürəcək qədər cəsarəti haradan aldılar?
    - Biz İsanın ölümünə görə necə məsuliyyət daşıyırıq?
6. İsanın ölümünə görə məsuliyyət daşıyanların başına nə gələcək (16-cı ayə)?
    - 16-cı ayəni son dövrlərdə məsihçi cəmiyyətlərinə necə aid etmək olar?
7. Bağı icarəyə götürənlər haqqında danışdığı məsəli bitirəndən sonra İsa Öz ölümü barədə əvvəlcədən xəbər vermək üçün digər bir məşhur obrazdan istifadə etdi: binanın guşə daşı. 17-18-ci ayələrin mənası nədir?
    - Rəbbin cəmiyyətini və ya məsihçini imanlarının guşə daşını rədd etməyə nə vadar edə bilər?
8. İsa yəhudi rəhbərlərinə son məsəli vasitəsilə nə demək istəyirdi?
    - İsa bu məsəl vasitəsilə məsihçilər cəmiyyətinin rəhbərlərinə nə demək istəyirdi?
    - İsa bu məsəl vasitəsilə şəxsən sizə nə demək istəyir?

## 34. DUL QADININ İANƏSİ (Luka 21:1-4)

**Qısa məlumat:** Əhdi-Ətiqdə dul qadınlar və yetimlər üçün çox vədlər vardır, məsələn, Zəbur 10:14, 17, 18 və Zəbur 68:5. Yəqin ki, bizim mətndə haqqında danışılan qadın bu vədləri eşitmişdi. İanələr bizim eramızın 63-cü ilində başa çatdırılan və 70-ci ildə dağıdılan məbədin tikilməsi üçün – bu hadisələrdən qırx il sonra – yığılırdı.

1. Nə üçün bütün dinlərdə insanlar ianə verirlər?
   - Mark bu hekayənin öz yazdığı versiyasında ianə qutusunun hamının görə bildiyi yerdə olduğunu göstərir (Mark 12:41). Əgər başqaları ianə verənin nə qədər verdiyini bilsələr, ona necə təsir edər?
   - Əgər bu dul qadın İsanın onu diqqətlə izlədiyini bilsəydi, nə düşünərdi?
2. Həmin dövrdə yəhudi cəmiyyətində nə sosial təhlükəsizlik sistemi vardı, nə də qadınlara evdən kənarda işləməyə icazə verilirdi. Təsəvvür edin ki, sizin əriniz vəfat edib və siz bu vəziyyətdə öz övladlarınızı dolandırmağa çalışırsınız. Sizin ən çox çətinlik çəkdiyiniz şey nə olar?
   - Əgər siz yuxarıda təsvir olunan bir vəziyyətdə olsaydınız, kimə və ya hansı məqsədlə öz son qəpiyinizə qədər verərdiniz?
3. İnsanı "dolanmaq üçün əlində nə varsa, hamısını" (4-cü ayənin ikinci hissəsi) verməyə nə vadar etdi? Mümkün variantlar haqqında düşünün.
4. Əgər Allah həmin dul qadını malik olduğu bütün pulu verməyə vadar etsəydi, onda həmin qadın bu cür Allah haqqında nə düşünərdi?
   - Bu iki insanın imanı: malik olduqlarına görə şükür edərək, Allaha ianə verən və Allahdan nə isə almaq üçün ianə verənlər bir-birindən nə ilə fərqlənir?
5. Bu dul qadının imanı nəyə bənzəyirdi?
   - Həmin dul qadın Allahın onun övladlarının qayğısına qalacağından necə əmin idi?
   - Allahın maddi cəhətdən də, sizin və övladlarınızın qayğısına qalacağına inanmaq sizə çətindirmi?
6. Bu dul qadın Allahdan nə aldı?
   - Siz Allahdan nə almısınız (bu dul qadın ilə müqayisədə)?
7. Sizcə, həmin dul qadının övladları o gecə ac yatdılar? Öz fikirlərinizi bölüşün.
   - Sizcə, sizin övladlarınıza / nəvələrinizə daha çox zərər verən nədir: onlar ehtiyac içində olmaqdan əziyyət çəksinlər, yoxsa istədikləri hər şeyi alsınlar?
8. Allah sizdən bu gün Ona və ya əziyyət çəkən qonşunuza nə təklif etməyinizi istəyir? Əgər istəyirsinizsə, öz ürəyinizdə cavab verin.
9. Bu dul qadın miras olaraq övladlarına nə qoydu?
   - Bu mətndə varlının və qadının öz övladlarına qoyub getdiyi mirası müqayisə edin.
   - Siz ölərkən övladlarınıza ən çox nəyi qoyub getmək istəyərdiniz?

**XOŞ XƏBƏR:** Bizim günahlarımız Müqəddəs Kitabda həddindən artıq çox pula – on min talanta oxşadılır. Hər birimiz öz borcumuzu ödəyə bilməyəndə zindana (yəni, cəhənnəmə) atılırıq. İsa bizi bu nəhəng borcdan azad etmək istəyəndə "dolanmaq üçün əlində olan nə varsa, hamısını" – və Öz qiymətli qanını qurban verməli idi.

## 35. PETER ÖZ MÜƏLLİMİNİ İNKAR EDİR (Luka 22:31-33 və 54-62)

**Qısa məlumat**: İsanı insanlar qarşısında inkar etmənin nə qədər ciddi günah olduğunu anlaması üçün qrup rəhbəri Mat. 10:32-33-cü ayələri oxumalıdır.

1. Əgər sevdiyiniz bir insan elə həmin gün onu rədd edəcəyinizi əvvəlcədən sizə deyərdisə, siz necə reaksiya verərdiniz?
    - Nə üçün Peter İsanın 34-cü ayədə əvvəlcədən dediyi sözə inana bilmədi?
2. Nə üçün Peter digər şagirdlərdən fərqli olaraq baş kahinin həyətinə qədər İsanın ardınca getdi?
3. Peter üç dəfə İsanı inkar edəndə nədən qorxurdu?
    - Əgər siz Peterin yerində olsaydınız, nə edərdiniz?
    - Siz hansı vəziyyətlərdə Məsihə imanınızı inkar etməyə sövq olunursunuz?
4. 61-ci ayədə İsanın Peter ilə vidalaşması təsvir olunmuşdur. Sizcə, İsa axırıncı baxışı ilə səhv etmiş şagirdinə nə demək istəyirdi?
    - Yetkin insanı acı-acı ağlamağa nə vadar etdi (62-ci ayə)?
5. Peter İsa ilə günün əvvəlində etdiyi söhbət haqqında nə düşünürdü (31-34-cü ayələr)?
    - İsanın onun üçün dua etmiş olduğunu və buna davam etdiyini bilməsi Peter üçün nə demək idi?
6. Sonradan Peter kəskin şəkildə İsanın öldürülməsi fikrinə qarşı çıxmışdı. Peter İsanın niyə ölməli olduğu haqda bu hadisə vasitəsilə nə öyrəndi?
7. Bu hadisə Peterə öz qardaşlarını gücləndirməyə necə imkan verdi?
    - Bizim günaha yol verməyimiz bacı və qardaşlarımızı gücləndirməyimizə necə imkan verir?
8. İsa hal-hazırda sizə Peter səhvə yol verərkən ona baxdığı kimi baxır. Onun gözləri sizə nə deyir?

**XOŞ XƏBƏR:** Peter öz Rəbbi və Müəllimini inkar etdi, lakin bağışlandı. İsa isə, bizim qorxaqlığımızın cəzasını çarmıxda daşıyaraq Atası tərəfindən inkar edildi.

## 36. CƏNNƏTİN DARVAZALARI AÇIQDIR (Luka 23:32-43)

**Qısa məlumat**: İsanın dövründə insanlar yalnız ən dəhşətli günahlara görə çarmıxa çəkilirdilər. Buna görə də, biz bu iki oğrunun pula görə insan öldürdüklərini və ya digər böyük cinayətləri törətdiklərini təxmin edə bilərik.

1. Bu iki insanı oğurluğa və ya döyüşməyə və s. başlamağa nə vadar edə bilərdi? Müxtəlif səbəblər barədə düşünün.
    - Bu iki insanın, ehtimal ki, həm anaları, həm də arvadları vardı. Həmin qadınların gündəlik həyatlarını düşünün.
    - Oğrular bu vəziyyətə gəlib çıxmamışdan niyə hərəkətlərinə son qoymadılar?
    - Nə üçün biz özümüzə və başqalarına qarşı zərərli olan davranışlarımızı vaxtında dayandırmırıq?
2. İki oğru İsanın çarmıxa çəkilməsini daha yaxından gördülər. İsanın sözlərində və əməllərində onlardan birinə təsir edən nə oldu (34-38-ci ayələr)?
    - Bu iki nəfər nifrət və intiqam dünyasında yaşayırdılar. Onlar 34-cü ayədə İsanın duası haqqında nə düşündülər?
3. Oğrulardan birini öz günahlarını görməyə nə vadar etdi?
    - O nədir ki, bizi özümüzü müdafiə etməkdənsə, günahlarımızı etiraf etməyə vadar edir?
4. Oğrulardan birini İsanın padşah olduğuna inanmağa nə vadar etdi (37, 38, 42-ci ayələr)?
    - İsa həmin zaman digər padşahlardan fərqli olaraq, necə padşah idi?
5. Nə üçün digər oğru İsanın nə Məsih, nə də padşah olduğuna inanmadı?
    - Nə üçün günahların etirafı həqiqi imandan əvvəl gəlir?
6. 42-ci ayədə biz qısa bir dua görürük: Ey İsa, Öz Padşahlığına gələndə məni xatırla!" nə üçün həmin oğru İsadan onu padşahlığına buraxmasını istəmədi?
    - Nə üçün əzab çəkdiyimiz zaman doğma olan bir kəsin bizi xatırladığını bilmək bizə təskinlik verir?
    - Nə üçün oğru cəhənnəmdə öz cəzasını çəkərkən İsanın onu, bir qatili xatırlamasını istəyir?
    - Hansı vəziyyətdə özünüzün həmin oğru kimi dua edə biləcəyinizi təsəvvür edirsiniz?
7. Oğru nə vaxt xilas oldu?
    - Bu insanın günahları necə oldu?
8. Həmin oğrunun məsihçi həyatı çox qısa, yalnız 6 saat çəkdi. Sizcə, o, həyatının son saatlarında xoşbəxt idi, yoxsa bədbəxt?
    - Sizcə, bu insan ölüm ayağında kiməsə nifrət edirdi?
    - İnsani nöqteyi-nəzərdən həmin oğru öz həyatını məhv etmişdi. Amma yenə də, onun həyatı niyə vacib idi?

**XOŞ XƏBƏR:** Cənnətin darvazaları Adəm və Həvva günah edən gündən günahkarlar üçün bağlı idi. İndi isə darvaza qatil üçün açılmışdı. Lakin eyni zamanda, cəhənnəmin darvazalarından içəri ayaq basmalı olan İsa üçün bağlı idi.

## 37. XAMMAYA GEDƏN YOLDA (Luka 24:13-35)

**Qısa məlumat:** Xamma Yerusəlimdən təxminən 11 kilometr aralıda yerləşən bir kənd idi. Bu məsafəni qət etmək üçün ən azı iki saat lazımdır. Kleopanın arvadı Məryəm İsa ölərkən çarmıxın yanında dayanan qadınlardan biri kimi xatırlanır (Yəhya 19:25). O, bu mətndə adı çəkilən Kleopanın arvadı ola bilər.

1. Əgər sizin nə vaxtsa, yaxınınız vəfat etmişsə, yas mərasimindən sonra insanın hansı düşüncələr, hisslər və peşmançılıqlar ilə qaldığını bilirsiniz. Onlar haqqında danışın.
    - İsa iki gün əvvəl çox əzablı şəkildə ölmüşdü. Sizcə, Kleopa və onun dostu üçün bu günlər ərzində ən çətin olan şey nə idi?
2. Nə üçün İsa əvvəlcə bu iki yas saxlayan insanın öz kədərlərini danışmalarına imkan verdi (15-17-ci ayələr)?
    - Əgər İsa dərhal Müqəddəs Kitabı şərh etməyə başlasaydı, nə baş verərdi?
    - İsa artıq bizim bütün əzablarımızı bilir – bəs niyə bizim dilimizdən eşitmək istəyir?
3. İsanın ölümündən sonra bu iki insanın imanı necə dəyişdi (19-21-ci ayələr)?
    - Nə üçün bu iki insan dirilmə haqqında qadınların və başqalarının onlara dediklərinə inanmadılar (22-24-cü ayələr)?
4. İsanın Öz ölümü haqqında Özünün verdiyi şərh ilə Kleopa və onun dostunun verdiyi şərh arasındakı fərq nə idi (19-21-ci və 25-27-ci ayələr)?
5. Nə üçün Kleopa Musa və Peyğəmbərlərin kitablarından (Müqəddəs Kitab) Məsihin əzab çəkib ölməsinin vacib olduğunu anlamadı?
6. Nə üçün İsa özünü daha uzaq yol gedərmiş kimi apardı (28-ci ayə)?
7. Nə üçün İsa çörəyi bölməmişdən əvvəl bu iki insan onun kim olduğunu anlamadılar?
8. Bu iki insanı qaranlıqda Yerusəlimə 11 kilometr yolu qayıtmağa nə vadar etdi?
9. Bu gün, özlərini məsihçi adlandıran bir çox insanlar İsanın cismən dirildiyinə inanmırlar. Bu insanlar hansı Allaha inanırlar?
    - Nə üçün insan İsa Məsihin cismən dirildiyinə inanmırsa, məsihçi ola bilməz?

**XOŞ XƏBƏR:** İsa Kleopanın evində yara izləri olan əlləri ilə çörək böldü. Həmin iki insan Onu əllərindəki izlərə görə tanıya bilərdilər. Biz hər dəfə Rəbbin süfrəsini qəbul edərkən, Dirilmiş Məsih ilə görüşə bilərik.

## 38. BÜTÜN MİLLƏTLƏRƏ (Luka 24:44-53)

1. İsaya əsasən, onun şagirdləri xəbəri nə cür və harada təbliğ etməlidir?
   - Nəyə görə İsa 11 savadsız kişiyə bu cür tapşırıq verdi?
2. Əhdi-Ətiqi başa düşmək üçün şagirdlərin dərrakəsini nə açdı?
   - Əhdi-Ətiqi başa düşmək üçün bizdə nə baş verməlidir?
3. İsa şagirdlərini şahid adlandırır (ayə 48). Onlar nə barədə şahidlik etməli idilər?
   - Biz nə barədə və kimə şahidlik etməliyik?
4. "Şahid" sözü, həmçinin, "əzab" kimi də tərcümə edilə bilər. Şagirdləri müjdə uğrunda ölməyə nə hazır etdi?
5. İsa onu izləyənlərə ucalardan qüvvə vəd etdi. Nəyə görə İsanın şahidlərinə bu qüvvə lazım idi?
   - Sizcə, siz ucalardan artıq qüvvə almısınız, və əgər almısınızsa, onda necə?
6. Böyük missioner olan Paul, ucalardan olan qüvvəni bu cür təsvir edir: (Qrup rəhbəri Romalılar 1:16 və 2 Kor. 12:9-10 oxumalıdır). Müzakirə edin: "Qüvvə" sözünün adi mənası Allahın qüvvəsindən necə fərqlənir?
7. Bu mətnə əsasən, missioner olmağın şərtləri nədir?
8. Nəyə görə İsa cismən yer üzündə qalmadı?
   - Göylərə qaldırılma nə cür baş verdi?
   - Rəbləri onların yanından uzaqlaşdırılsa belə, şagirdləri şad edən nə idi?
9. Müzakirə edin: İsa göylərə qalxdıqdan sonra onunla münasibət qurmaq dünyada olduğu kimi asan idimi?
   - Siz İsanın gözə görünməz bir dost kimi yanınızda olduğunu nə qədər tez-tez xatırlayırsınız?

**XOŞ XƏBƏR:** İsanın indi göylərdə nə etdiyinə İbr. 7:25-də baxın.